

## “Avropa Azərbaycanı etibarlı tərəfdaş görür”

3

# Azərbaycan ordusu yeni və irimiqyaslı zərbə endirməyə hazırdır!

8



*Son zamanlar Qarabağ regionunda erməni təxribatlarının baş verməsi istər-istəməz və haqlı olaraq belə bir sual yaradır: Niyə və hansı səbəblərə görə Azərbaycanın suveren ərazilərində qanunsuz erməni silahlıları qalmaqda davam edirlər? Özü də ərazilərimizə müvəqqəti dəvət edilmiş Rusiya sülhməramlıları kontingentinin (RSK) gözləri qarşısında...*



SƏS

№ 025 (6466) 10 fevral 2022-ci il. Qiymәti 60 qәpik

# Əsirlikdən qayıdan və qayıda bilməyənlər...

11



*Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən videoformat görüşündə maraqlı hadisə yaşanıb. Ermənistan rəhbərinin həmişə olduğu kimi, diqqəti əsas məsələlərdən yayındırmaq üçün ”hərbi əsir” məsələsini müzakirəyə çıxarmaq istəyi Azərbaycan Prezidentinin tutarlı arqumentləri və azərbaycanlı əsirlər və itkin düşmüş şəxslər haqqından...*

## Araik Arutunyan Bakıya təslim edilir: Ermənistan prokurorluğu açıqlama yayıb!



## Yeni qəbul olunan qanuna MEDİA KAPİTANLARININ BAXIŞI - SORĞU

*Xəbər verdimiz kimi Prezident İlham Əliyev "Media haqqında" qanunu təsdiqləyib. Bu qanun media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.*

6



## Jurnalistlərin sosial ipoteka alması imkanı nəyi dəyişəcək?

5



Azərbaycanda jurnalistlər güzəştli ipoteka əldə edə biləcəklər. SİA xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında Prezidentin Fərmanında qeyd edilib.



## “Qanun mediamızın inkişaf tarixində yeni bir mərhələ təşkil edəcək”

7

*“Media haqqında qanunun tətbiq edilməsi mediamızın inkişaf tarixində tamamilə yeni bir mərhələ təşkil edəcək.*




## USAİD-in Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxması faktı çoxdan sübuta yetirilib!

15

Səs Media Qrupunun siyasi araşdırma və analitik şöbəsi olaraq dəfələrlə USAİD-in anti-Azərbaycan xarakterli rəhbəri Samanta Pouer, eləcə də...

# Cənub Qaz Dəhlizi: dünyaya açılan enerji qapısı

***Bu gün enerji siyasəti dünyada mühüm və strateji rola malikdir. Qloballaşan dünyanı enerji təhlükəsizliyi məsələsindən kənarda təsəvvür etmək qeyri-mümkündür. Son illər bu problem bəşəri əhəmiyyətli məsələ kimi dünyanın diqqət mərkəzində qalmaqdadır. Zəngin təbii sərvətlərə, davamlı iqtisadiyyata və müasir texnologiyalara malik olan müstəqil Azərbaycan dövləti dünyanın enerji təhlükəsizliyi məsələlərinin həllində də aparıcı mövqe tutur, Qərbin enerji tələbatının ödənilməsinə önəmli töhfə verir.***



İLHAM ƏLİYEV: "Cənub qaz dəhlizi" layihəsi başa çatıb, bizim işimiz isə davam edir"




Birmənalı şəkildə deyə bilərik ki, Azərbaycanda davamlı iqtisadi inkişafın təmin olunmasında Prezident İlham Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi unikal sosial-iqtisadi siyasət, o cümlədən bu siyasətin prioritet istiqamətlərindən olan iqtisadiyyatın innovativ inkişafı və dərindən şaxələndirilməsi həlledici rol oynamışdır. Dövlətimizin başçısı daim bu inamı ifadə edir ki, gələcəkdə iqtisadiyyatın daha da şaxələndirilməsi, iqtisadi islahatların davam etdirilməsi ölkəmizin davamlı inkişafı üçün əlavə imkanlar yaradacaq və Azərbaycan qarşıdakı illərdə daha da güclü olacaq işğaldan azad edilmiş torpaqlarda bərpa proqramına uyğun olaraq görüləcək işlər 30 ilə yaxın öz doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın Böyük Qayıdışı ilə başa çatacaq və bu ərazilərin malik olduğu imkanlardan səmərəli istifadə etməklə qeyri-neft sektorunun inkişafı daha da sürətlənəcək, ölkəmiz bu sahədə mövcud imkanları ilə dünyanın diqqətində olmaqla yanaşı, investisiya cəlbediciliyini artıracaq.

### CƏNUB QAZ DƏHLİZİNİN REALLAŞMASI AZƏRBAYCAN PREZİDENTİNİN PRİNSİPİAL MÖVQEYİNİN BƏHRƏSİDİR

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi və Prezident İlham Əliyevin çoxşaxəli, müasir qərarlarla inkişaf etdirdiyi enerji siyasəti nəticəsində Azərbaycan enerjiyə olan daxili tələbatı tam təmin edilməklə bərabər, bu sahədə ixracatçı ölkəyə çevrildi. Ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasət sayəsində Azərbaycan regional və qlobal əhəmiyyət daşıyan enerji və nəqliyyat layihələrinə imza atır, bu layihələrin əsas təşəbbüskarı və fəal iştirakçısı statusunu şərəflə daşıyır. Belə layihələrdən biri də zəngin "Şahdəniz" yatağının ehtiyatlarının işlənməsinə və Azərbaycan qazının Avropa ölkələrinə çatdırılmasına hesablanan Cənub Qaz Dəhlizi layihəsidir. Xatırlatmaq istərdim ki, bu dəhlizin ərsəyə gəlməsində önəmli rola malik olan Avropa İttifaqı ilə Azərbaycan arasında 2011-ci ildə Birgə Bəyannamə imzalanıb. Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan TAP layihəsi isə 2020-ci il dekabrın 31-də tamamlandı. Artıq reallığa çevrilən Cənub Qaz Dəhlizi layihəsi 7 ölkəni birləşdirən, 3500 km uzunluğa malik olan kəmərin ilkin layihə dəyəri 44.6 milyard dollar idi. Bu nəhəng layihə ilə ölkəmiz dünyada təbii qazın ən çox idxal edildiyi Avropa qaz bazarına birbaşa çıxış əldə etməklə yanaşı öz ixrac imkanlarını şaxələndirərək dünyanın nüfuzlu qaz ixracatçılarından birinə çevrilir.

Və 21-ci əsrin ən nəhəng enerji layihələrindən biri olan Cənub Qaz Dəhlizinin reallaşması Azərbaycan Prezidentinin prinsipial mövqeyinin bəhrəsidir. 4 fevral 2022-ci il tarixində Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurasının çərçivəsində nazirlərin 8-ci toplantısında Avropa İttifaqının komissarlarının, ABŞ, Böyük Britaniya, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya, Xorvatiya, Macarıstan, Monteneqro, Rumıniya, Serbiya, Şimali Makedoniya, Moldova, Bosniya və Herseqovina, Ukrayna və Türkmənistanın yüksək səviyyəli nümayəndələrinin iştirakı, həmçinin dünyanın bir sıra aparıcı şirkətlərinin və maliyyə qurumlarının qatılması layihəyə durmadan artan marağı və onun genişlənməkdə olan miqyasını göstərir. Həmçinin, səslənən fikirlər, irəli sürülən təkliflər bir daha təsdiqləyir ki, bütün sahələrdə, o cümlədən enerji təhlükəsizliyi məsələsində Azərbaycan etibarlı tərəfdaş kimi öz mövqeyini beynəlxalq arenada möhkəmləndirməkdədir. Dövlətimizin başçısı cənab İlham Əliyev də çıxışında bu məsələyə xüsusi diqqət yetdirdi. Ölkəmiz ixrac prosesinə başladığı vaxtdan bu günə kimi təchizatda heç bir ləngimə baş verməyib, müqavilə şərtləri pozulmayıb, Azərbaycan öz öhdəliklərinə sadiq qalaraq üzərinə düşəni ləyaqətlə yerinə yetirib.Cənub Qaz Dəhlizi dünyanın ən nəhəng layihələrindən biridir. Kəmərin çox ağır mürəkkəb relyeflərdən - hündür dağlardan, dəniz çökəkliyindən keçməsinə bağmayaraq, boru xətti yüksək keyfiyyəti ilə standartlara tam cavab verir. Layihənin uğurla tamamlanması istiqamətində də Azərbaycan öz üzərinə düşən vəzifələri vaxtında və çevik şəkildə icra etdi. İqtisadçıların hesablamalarına görə, ölkəmiz Dəhlizi çərçivəsində ixrac edəcəyi mavi qazdan milyardlarla dollar gəlir əldə edəcək. Bu da ölkəmizin valyuta ehtiyatlarının, büdcə gəlirlərinin artması, iqtisadi imkanlarının daha da genişlənməsi deməkdir.

Dövlət başçısı hazırda dəyəri 33 milyard dollar ilə ölçülən Cənub Qaz Dəhlizi layihəsinin əsas yatağının "Şahdəniz" yatağı olmasını vurğulayaraq, "Ümid", "Babək", "Azəri-Çıraq-Günəşli" neft-qaz yataqlarının da böyük karbohidrogen ehtiyatlarına malik olmasını qeyd edib. Hesablamalara görə, Azərbaycanın 2022-ci ildə Avropaya 9 mlrd kubmetr, 2023-cü ildə isə 11 mlrd kubmetr qaz ixrac etməsi nəzərdə tutulub. Bundan başqa 2021-ci ilin sonunda Azərbaycan, İran və Türkmənistan arasında qaz mübadiləsinə dair imzalanmış üçtərəfli saziş Türkmənistandan İran vasitəsilə Azərbaycana ildə 1,5-2 milyard kubmetrədək qazın nəql edilməsini nəzərdə tutur ki, bu da Avropaya qaz nəqlinin indikindən nəzərə çarpacaq dərəcədə artması deməkdir. Bu, eyni zamanda, ölkəmizin Avropa üçün vacib qaz habına çevrilməsi kimi də qiymətləndirilir.

### AVROPA İTTİFAQININ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI: "CƏNUB QAZ DƏHLİZİ" DAVAMLI UĞUR HEKAYƏSİDİR"

"Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı bir daha təsdiqlədi ki, Azərbaycanın təşəbbüsləri ilə ərsəyə gələn bu enerji dəhlizi onun bütün iştirakçıları tərəfindən yüksək dəyərləndirilir. Avropa İttifaqının komissarlarının, ABŞ, Böyük Britaniya, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya, Xorvatiya, Macarıstan, Monteneqro, Rumıniya, Serbiya, Şimali Makedoniya, Moldova, Bosniya və Herseqovina, Ukrayna və Türkmənistanın yüksəksəviyyəli nümayəndələrinin toplantıda iştirak etmək üçün Bakıya gəlmələri bunu təsdiq etdi. Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Kadri Simson "Cənub qaz dəhlizi"nin əhəmiyyətini qeyd edərək dedi: "Hamımız bu layihə zamanı dəf etdiyimiz çətinlikləri və maneələri yaxşı xatırlayırıq. Lakin bu gün hətta ən skeptik yanaşan insanlar onun baş tutmasına görə minnətdarlıq bildirir. Etibarlı, rəqabətcil və qəbul edilən qiyməti olan qaz Cənub-Şərqi Avropaya yol tapmaqdadır. Evlər qazla təchiz olunur, binalar isidilir və vətəndaşlar ehtiyac duyduğu enerjini alırlar. Artan enerji qiymətləri və sərt qaz təchizatı ilə dəhlizin rolu Avropa İttifaqı üçün heç vaxt görünməyən strateji əhəmiyyət kəsb edir. Fikrimizcə, "Cənub qaz dəhlizi" davamlı uğur hekayəsidir".

### "İşğaldan azad edilmiş ərazilər üçün bizim xüsusi proqramımız var"

"Bizim işğaldan azad edilmiş ərazilər üçün xüsusi proqramımız var. Energetika Nazirliyimiz aparıcı beynəlxalq şirkətlərlə birlikdə artıq Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası üçün konseptual proqnoz hazırlayıb".

Bunu Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısındakı çıxışında deyib. "Biz artıq Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan mənbələrin potensialının beynəlxalq qiymətləndirməsini aparmışıq və ilkin rəqəmlər çox ümidvericidir. Külək enerjisində potensial təxminən 7200 meqavat, Günəş enerjisində potensial isə 2000 meqavatdan çoxdur. Yeri gəlmişkən, sizi məlumatlandırmaq istərdim ki, bizim neft-qaz sahəsində strateji tərəfdaşımız olan BP işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Cəbrayıl rayonunda işləməyə böyük maraq göstərir. Biz artıq orada 200 meqavatdan çox gücə malik bərpaolunan enerji mənbəyinin tikintisi ilə bağlı BP ilə danışıqlar mərhələsindəyik", - deyə dövlətimizin başçısı bildirib.

Təsadüfi deyil ki, Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simson toplantıdakı çıxışında bu məsələyə də toxunub: "Bərpaolunan enerji mənbələrinə gəldikdə, onlar Avropanın uzunmüddətli planlarının təməl daşını təşkil edir. Bu, nəinki bizə dekarbonlaşmanı təmin etməyə, o cümlədən daha böyük bərpaolunan enerji mənbələrinin təmin edilməsinə yardım göstərəcək. Bizim bilik və təcrübəmiz, bu sahədə atdığımız addımlar tərəfdaşlarımıza açıqdır. Məsələn, Azərbaycandan başlayaq. Hörmətli cənab Prezident, mən maraqla onu öyrəndim ki, hazırda Xəzər dənizindəki bu potensial qiymətləndirilir. Yəni aydındır ki, həmçinin "Küləklər şəhəri" kimi tanınan Bakıda bu, Azərbaycan üçün çox böyük imkandır".

Bir sözlə, bir vaxtlar Cənub Qaz Dəhlizini yalnız möcüzə kimi qiymətləndirənlər, bu gün nəhəng layihənin reallaşmasına şahidlik edirlər. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli və prinsipial siyasəti nəticəsində, sözün həqiqi mənasında, dəyişkən enerji xəritəsi formalaşdıra bildi. Bu gün dünyanı heyrətləndirən meqalayihələrin təşəbbüskarına çevrilən ölkəmiz yalnız regionun deyil, Avropanın belə enerji təhlükəsizliyinin təminatçısı kimi çıxış edir. Bu isə Azərbaycanın həm coğrafi, həm də regional mövqeyini möhkəmləndirir.

***RƏFİQƏ KAMALQIZI***

***"Azərbaycan regionun, eləcə də Avropanın enerji təhlükəsizliyinin formalaşmasına töhfə verən ölkələrdən biridir". Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Yusif Bağırzadə 4 fevral tarixində keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı haqqında danışarkən deyib. Politoloq qeyd edib ki, "Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı Azərbaycanla Avropa arasında yeni bir səhifə açdı.***

# "Avropa Azərbaycanı etibarlı tərəfdaş görür"




"Məlumdur ki, 2020-ci ilin sonundan etibarən Azərbaycan Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya mavi qazın ixracına başlayıb və geridə qalan bu bir il ərzində Azərbaycan Avropa üçün sabit qaz tədarükçüsü qismində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib. Cənab Prezident İlham Əliyevin də dediyi kimi dəyəri 33 milyard ABŞ, dolları olan Cənub Qaz Dəhlizi XXI əsrin ən böyük layihələrindən biridir. Cənub Qaz Dəhlizinin reallaşması birmənalı şəkildə tarixi hadisədir və bu nəhəng enerji layihəsini bu dərəcədə, yəni keyfiyyətlə və çətin geosiyasi vəziyyətdə həyata keçirmək doğrudan da böyük səylər tələb edirdi. Bu layihə həm də müasir tarixdə çox azsaylı layihələrdən biridir ki, onun icrasına bütün aparıcı beynəlxalq maliyyə institutları - Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı öz töhfəsini vermişdir.

Keçən bir il ərzində Azərbaycan beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına ixracı artırmağa müvəffəq olub. Belə ki, keçən il Azərbaycan 19 milyard kubmetr təbii qaz ixrac edib ki, bunun da təqribən 8,5 milyardı Türkiyəyə, 7 milyard kubmetri İtaliyaya, yerdə qalan hissəsi isə Gürcüstana, Yunanıstana və Bolqarıstana ixrac olunub. Azərbaycanın Avropanın qaz tədarükçüsü qismində əldə etdiyi nailiyyətlər təbii olaraq hər gün daha çox Avropa ölkəsinin Cənub Qaz Dəhlizinə marağının artmasına səbəb olur. Cənub Qaz Dəhlizini əhəmiyyətli edən ən vacib məqamlardan biri də onun alternativ enerji kəməri kimi təhlükəsiz və sabit olması ilə bağlıdır. Həmçinin yeni perspektiv qaz mənbələrinin kəşf edilməsi və təsdiq edilmiş qaz yataqlarının nəhəng ehtiyatları Avropa üçün Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini daha da gücləndirir. Yəni başqa sözlə desək Avropa Azərbaycanı özünün enerji təhlükəsizliyini təmin edən etibarlı tərəfdaş və strateji partnyor kimi görür və bunda da haqlıdır. Belə ki, bu gün Azərbaycanın isbat edilmiş qaz ehtiyatı təqribən 2,6 trilyon kubmetrə bərabərdir və bu hələ son rəqəm deyil. Məsələn ən böyük yataq olan "Şahdəniz" yatağındakı ehtiyatlar - bir trilyon kubmetr olaraq dəyərləndirilir. Amma texnologiyaların sürətlə inkişaf etdiyi bir dövrdə bu yatağın qaz ehtiyatlarının artacağını da proqnozlaşdırmaq mümkündür. Belə ki, xatırlayırsınızsa Azəri-Çıraq-Günəşli yatağının ehtiyatları ilkin mərhələdə 500 milyon olaraq dəyərləndirilmişdi amma bu gün görürük ki, onun potensialı artıq 1 milyardı ötüb. Üstəgəl, gələcəkdə Abşeron qaz yatağı istismara veriləcək. Ən böyük qaz kondensatı yataqlarından biri olan "Abşeron"da birinci mərhələdə 1,5 milyard kubmetr qazın hasil olunacağı gözlənilir. Əlavə olaraq 200 milyard kubmetrdir ehtiyata malik "Ümid", 400 milyard kubmetr ehtiyata malik "Babək", "Asiman", yeni bir çox qaz yataqlarımız tədricən artıq işlək vəziyyətə çıxacaq və bizim həcmimiz böyük dərəcədə artacaq. Bu, bizim böyük üstünlüyümüzdür. Həm ölkəmizə əlavə vəsait gətirəcək, ölkəmizin beynəlxalq imkanları genişlənəcək və təbii ki, Avropa İttifaqı-Azərbaycan əlaqələrində bu faktor bundan sonra da mühüm rol oynayacaq.

Bütün bu sadalananlar Avropa bazarında Azərbaycan qazına olan müştərilərin sayını artırır. Başqa sözlə Avropa öz enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş qismində çıxış edən Azərbaycana xüsusi önəm verir. Düzdür, hələlik faiz baxımından ölkəmizin Avropa bazarında Azərbaycan qazının payı elə də böyük deyil. Ancaq yeni-yeni yataqların kəşf edilməsi, üstəgəl gələcək perspektivdə Türkmənistan qazının da Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan üzərindən nəqli gələcəkdə Şərqi və Cənubi Avropa ölkələrinin tələbatının əsasən Cənub Qaz Dəhlizi vasitəsilə təmin edilməsinə imkan verəcək.

Nazirlərin toplantısında diqqət çəkən digər bir vacib məqam isə Azərbaycanın istehsal etdiyi elektrik enerjisinin ixrac potensialı ilə bağlı oldu. Öz çıxışında ölkə başçısı bildirdi ki, bizim elektrik enerjimizə regional bazarda da ehtiyac var və biz bəlkə də bir az da uzağa, Avropaya qədər gedə bilərik. Doğurdan da bu gün Azərbaycan dünyanın xam neft, təbii qaz, neftkimya məhsulları, neft məhsulları və elektrik enerjisi ixrac edən az sayda ölkələrindən biridir. Hal-hazırda dörd qonşu ölkəyə - Türkiyə, Rusiya, Gürcüstan və İrana elektrik enerjisi ixrac edirik. Avropada isə enerjiyə olan tələbat hər gün daha sürətlə artır. Bu isə təbii olaraq enerji daşıyıcılarının idxalını artırır. O baxımdan gələcəkdə Avropaya həm də elektrik enerjisinin ixracı istisna olunmur. Çünki ölkəmizdə yerli və xarici investorlar hesabına həyata keçirilən bir sıra layihələr istehsalın daha da artmasına gətirib çıxaracaq. Bu isə öz növbəsində daxili tələbatı ödəməklə yanaşı, daha çox elektrik enerjisi ixrac etməyə imkan verəcək.

Bütün sadalananlar onu deməyə əsas verir ki, Azərbaycan Cənub Qaz Dəhlizi, eləcə də ölkəmizin dəstəyi ilə reallaşan digər enerji layihələri hesabına regionun, eləcə də Avropanın enerji təhlükəsizliyinin formalaşmasına çox böyük töhfə verir", deyə politoloq Yusif Bağırzadə bildirib.

***İnam Hacıyev***

# POLİTOLOQ: "Texnofest"in Azərbaycanda keçirilməsi olduqca mühüm hadisədir



"İlk olaraq qeyd edim ki, 100 faiz türk brendi olan "Texnofest"in Azərbaycanda keçirilməsi olduqca mühüm hadisədir". Bunu SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib. Politoloq bildirib ki, 2018-ci ildən etibarən təşkil olunan "Texnofest" innovasiya, startap və texnologiya sahəsində dünyanın ən qabaqcıl tədbirlərdən hesab olunur: "Festivalın keçirilməsinin əsas məqsədlərindən biri gənclərin qeyd olunan sahələrə diqqətini cəlb etmək və müvafiq istiqamətlər üzrə inkişafı təmin etməkdir. Bu, 1,2 milyonluq iştirakçı ilə dünyanın ilk geniş aerokosmik və texnologiya festivalıdır.

2022-ci ildə "Texnofest"in Azərbaycanda keçirilməsi ilə bağlı qərar hələ keçən il verilmişdir və xatırlayıram ki, "TEKNOFEST" Müşahidə Şurasının sədri, Türkiyənin Texnologiya Komandası Vəqfinin rəhbəri Səlcuq Bayraqdar o zaman qeyd etmişdir ki, bu festivalın Türkiyədən kənarda keçiriləcək ilk tədbirinin məhz qardaş Azərbaycanda keçirilməsinə qərar vermişik. Beləliklə də, "Texnofest" bu il ilk dəfə olaraq Türkiyə sərhədlərindən kənarda - Azərbaycanda keçiriləcək. Bu təbii ki, qardaşlığın, dostluğun, strateji tərəfdaşlığın təzahürüdür. Festival təbii olaraq gənclərimizin texnologiyaya marağının artmasına təkan verəcək. "TEKNOFEST" həm də beynəlxalq bazarlara çıxış imkanı olan startaplarımız üçün buraya dəvət edilmiş fondlarla əməkdaşlıq baxımından da əhəmiyyətli rol oynayacaq. Digər bir tərəfdən isə bu festival dünyanın müxtəlif ölkələrindən olan gənclərin Azərbaycanı tanıması, ölkəmizin həqiqətləri ilə yerindəcə tanış olması baxımından da xüsusi əhəmiyyət daşıyır".

Rəşad Bayramov fikirlərinə əlavə edərək qeyd edib ki, keçiriləcək festivalda Türkiyə prezidenti, hörmətli R.T.Ərdoğanın iştirakı isə festivalın əhəmiyyətini daha da artırır: "Təbii ki, festival çərçivəsində Türkiyə prezidentinin ölkə başçısı İlham Əliyevlə də görüşü planlaşdırılır və bu da iki ölkə arasında olan münasibətlər, eləcə də regionumuzda və dünyada baş verən prosesləri müzakirə etmək üçün əlavə imkanlar verir. Xüsusilə də indiki dönəmdə yəni, Türkiyə və Azərbaycan arasında imzalanmış, özündə hərtərəfli müttəfiqlik və qardaşlıq münasibətlərini ehtiva edən "Şuşa bəyannaməsi"nin hər iki ölkələrin parlamentlərində təsdiq olunmasından sonra atılacaq addımlarla bağlı müzakirələr olduqca əhəmiyyətlidir. Nəzərə almaq lazımdır ki, Türkiyə bu gün təkcə regionumuzun deyil, dünyanın söz sahibi ölkələrindən biridir və təbii olaraq belə bir ölkənin, özü də dost və qardaş ölkənin rəhbərinin Azərbaycana gəlişi və bu və ya digər məsələlərlə bağlı müzakirələrin aparılması təbii olaraq Azərbaycanın da mövqelərinin möhkəmlənməsi baxımından əhəmiyyətlidir".

Politoloq bildirib ki, bu görüşdən öncə prezidentlərin Antalyadakı Diplomatiya Forumunda görüşməsi də gündəmdədir və o da məlumdur ki, həmin forumda Ermənistanın baş naziri Paşinyanın da iştirakı etməsi ehtimalı da var: "Düzdür, Paşinyan hələ ki, həmin forumda iştirakını tam təsdiqləməyib və yalnız ehtimallar danışaraq Türkiyə-Ermənistan münasibətlərində müəyyən müsbət irəliləyişlər olacağı halda həmin forumda iştirak edə biləcəyini deyib. Amma düşünürəm ki, son nəticədə Paşinyan həmin forumda iştirakla bağlı qərar verəcək. Çünki bu gün həm Türkiyə ilə, həm də Azərbaycanla münasibətlərin normallaşması Ermənistan üçün hava-su kimi lazımdır və belə demək mümkünsə düşdükləri bataqlıqdan xilas olmalarının yeganə yoludur.

Ehtimal olunan görüşlərin Azərbaycan-Türkiyə-Ermənistan münasibətlərinə və ya sülh sazişinin imzalanmasına təsirinə gəldikdə isə burada hər şey Ermənistandan asılıdır. Əgər onlar yaranmış vəziyyəti düzgün dəyərləndirsələr, əgər Paşinyan münasibətlərin normallaşmasına hər cür vasitələrlə etiraz edən xaricdəki erməni diasporasının və ölkə daxilindəki qüvvələrin təzyiqlərinə tab gətirə bilsə təbii ki, münasibətlərin normallaşması ilə bağlı müəyyən irəliləyişlər ola bilər. Bunun üçün isə ilk növbədə Ermənistanın öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi, nəqliyyat-komunikasiya xtlərinin açılması, sərhədlərin delimitasiya və demorkasiyasının həyata keçirilməsi, Azərbaycana və Türkiyəyə qarşı olan ərazi iddialarından əl çəkməsi və ölkələrimizin ərazi bütövlüyünü tanıması lazımdır. Məhz bunlardan sonra sülh sazişi haqqında danışmaq da olar".

***Qönçə Quliyeva***

# “Dəmir yumruq” gücündən - Qarabağ dirçəlişinə doğru!

## İlham Əliyev: "Mənim sözüm imzam qədər qüvvətlidir!"

***Bəli, bu gün "Dəmir yumruğ"un gücü ilə Qarabağ Azərbaycandır dirçəliş yolundadır. İlk öncə bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi əsas məsələlər sırasındadır. Doğrudur, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu, Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. Bu, həm on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir.***



Prezident İlham Əliyev həmişə çıxışlarında ”mənim sözüm imzam qədər qüvvətlidir”,-deyir. Və işğaldan azad olunmuş torpaqlara səfərləri və qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! ”Mənim sözüm imzam qədər qüvvətlidir!”,- deyən Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk gündən həyata keçirdiyi siyasət isə respublikamızın davamlı yüksəlişini, möhkəmlənməsini, qüdrətlənməsini təmin edib. Bu inkişaf kompleks xarakter daşıyaraq cəmiyyət həyatının bütün sahələrində yüksəlişə yol açıb.







Nəticə etibarilə Azərbaycan regionun lideri statusuna sahib olub, beynəlxalq enerji təhlükəsizliyində dünyanın aparıcı dövlətlərindən biri kimi tanınıb. Bütün bunların fonunda son illərin əsas reallıqlarından biri bugünkü Azərbaycanın öz tarixinin ən qüdrətli dövlətinə çevrilməsidir. Təbii ki, bütün bu uğurlarımızın kökündə hər şeydən əvvəl siyasi iradə, möhkəm qətiyyət, düzgün idarəçilik dayanır. Məhz bunların sayəsində Ulu Öndər Heydər Əliyev 1993-cü ildə, ümidlərin artıq tükəndiyi bir vaxtda Azərbaycanı xilas etmişdi. Özünün siyasi müdrikliyi ilə Heydər Əliyev xarici təsirlərin maraq dairəsində olan Azərbaycanı qorudu, müstəqilliyimizin itirilməsinə imkan vermədi, ölkəmizi inkişaf yoluna çıxardı.

### PREZİDENT CƏMİ BİR İL ƏRZİNDƏ QARABAĞIN DİRÇƏLİŞİ YOLUNDA BİR ÇOX DÖVLƏTLƏRİN 10 İL ƏRZİNDƏ GÖRƏ BİLMƏDİYİ İŞLƏRİ REALLAŞDIRIB

Onu da qeyd edək ki, Azərbaycan Prezidenti cəmi bir il ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb, genişmiqyaslı layihələr icra olunur. Şuşaya Zəfər yolu, Füzuli-Şuşa ikinci magistral avtomobil yolu çəkilir, dini-tarixi abidələr bərpa olunur. İnfrastruktur layihələri icra olunur. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır.

Cəmi bir il öncə Vətən müharibəsi başlayanda İlham Əliyev xarici KİV-ə verdiyi müsahibələrdə qətiyyətlə, inamla deyirdi ki, işğaldan azad edilmiş torpaqlar yenidən qurulacaq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Yeni-yeni infrastrukturlar yaradılacaq. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda, siyasi münasibətlər sahəsində də müsbət meyillər güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq. Bir sözlə, Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xətrinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Hər kəs şahiddir ki, erməni vandallarının daşı daş üstündə qoymadığı torpaqlarımızda bir ildə hansı işlər görülüb və bu quruculuq işləri hər gün davam etdirilir. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, yaxın illərdə Qarabağ yenidən cənnətməkana çevriləcək. İlham Əliyevin dediyi kimi, ölkəmizin gələcək inkişafı çox uğurlu olacaq. Bu günədək Azərbaycan Prezidentinin bəyan etdiyi bütün hədəflərə nail olunması bunu təsdiqləyir. Və İkinci Qarabağ savaşını ”Dəmir yumruq”la qazanan Ali Baş Komandan İlham Əliyev ”dəmir iradə” ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Yeni açılışlar, təməlqoymalar isə işğaldan azad edilmiş torpaqlarımızda başlanan tikinti-quruculuq, yenidənqurma işlərinin, yeni Qarabağın inkişaf planının tərkib hissəsidir.

### 29 İLDƏN SONRA AZƏRBAYCANA TAMAMİLƏ FƏRQLİ MƏNZƏRƏ HAKİMDİR

Düz 29 il əvvəl, 1992-ci ilin may ayında müstəqilliyimizin ağır günlər, hakimiyyət uğrunda çəkişmələr Ermənistanın Azərbaycan torpaqlarını işğal etmək planlarını həyata keçirə bilməsi üçün əlverişli zəmin yaratdı və Şuşa, Laçın işğal olundu. AXC-Müsavat cütlüyü siyasi hakimiyyətə gəlmək üçün milli xəyanətə qol qoydu. Ancaq bu gün - 29 ildən sonra isə dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən ”Xarıbülbül” festivalı artıq bərpa olunub.

”Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur” deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 18 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev buna nail oldu. Bütün müharibələrdə olduğu kimi, İkinci Qarabağ müharibəsinin taleyini də strateji bir hədəf həll edirdi ki, bu da Şuşa idi. Məhz buna görə 44 günlük müharibədə çox böyük uzaqgörənlik nümayiş etdirən müzəffər Ali Baş Komandan İlham Əliyev döyüşən ordunun böyük hissəsini Şuşa istiqamətində səfərbər etdi. Şuşa qələbəsindən sonra azğın düşmən ağ bayraq qaldıraraq təslim oldu, kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı, hələ azad olunmamış üç rayonla yanaşı, bir neçə kəndimizi boşaltmaq öhdəliyini üzərinə götürdü və Zəngəzur dəhlizinin açılmasına razılıq verməyə məcbur edildi. Hələ 2010-cu il noyabrın 1-də Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılışında çıxış edərkən Azərbaycan Prezidenti İlham Əliyev demişdi ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaq. 2021-ci ilin yanvarın 14-ü həmin vəd yerinə yetirildi. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı qaldırdı. Separatçı rejiminin nümayəndələri o vaxt demişdilər ki, ancaq bir halda Azərbaycan bayrağı Şuşada qaldırıla bilər, o da əgər Azərbaycan ”Dağlıq Qarabağ respublikası”nı tanıyıb Dağlıq Qarabağda öz səfirliyini açsa. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycana ordusunun parlaq zəfəri bu iyrənc, təkəbbürlü ifadələrin sahiblərini qorxaqcasına susmağa məcbur edir. Prezident çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa edildən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Bu sözlər də artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub.

### “ÖLKƏMİZİN GƏLƏCƏK İNKİŞAFI ÇOX UĞURLU OLACAQ”

Bir sözlə, Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xətrinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Hər kəs şahiddir ki, erməni vandallarının daşı daş üstündə qoymadığı torpaqlarımızda bir ildə hansı işlər görülüb və bu quruculuq işləri hər gün davam etdirilir. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, yaxın illərdə Qarabağ yenidən cənnətməkana çevriləcək. İlham Əliyevin dediyi kimi, ölkəmizin gələcək inkişafı çox uğurlu olacaq. Bu günədək Azərbaycan Prezidentinin bəyan etdiyi bütün hədəflərə nail olunması bunu təsdiqləyir. Və İkinci Qarabağ savaşını ”Dəmir yumruq”la qazanan Ali Baş Komandan İlham Əliyev ”dəmir iradə” ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Yeni açılışlar, təməlqoymalar isə işğaldan azad edilmiş torpaqlarımızda başlanan tikinti-quruculuq, yenidənqurma işlərinin, yeni Qarabağın inkişaf planının tərkib hissəsidir.

Bəli, artıq bir ildir ki, gözəl Qarabağımızda yeni canlanma var, onu cənnətə çevirmək üçün böyük quruculuq, abadlıq işləri aparılır. Doğrudur, bu vaxtaparan, həm də külli miqdarda vəsait tələb edən çətin bir proses olacaq. Lakin qurucu liderimiz, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün çətinlikləri aradan qaldıraraq Qarabağı əvvəlkindən də abad edəcəyik.

Bir sözlə, dövlət başçımızın dediyi kimi: ”Biz gözəl Qarabağımızı yenidən canlandıracaq, onu cənnətə çevirəcəyik”.

**R. HÜSEYNOVA**

# Jurnalistlərin sosial ipoteka alması imkanı nəyi dəyişəcək?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*



*Azərbaycanda jurnalistlər güzəştli ipoteka əldə edə biləcəklər. S?A xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında Prezidentin Fərmanında qeyd edilib.*







ANALİZ

Fərmana görə, "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"na 3.2.1-ci yarımbəndə aşağıdakı məzmunda 8-ci abzas əlavə edilib.

Yeni əlavəyə görə, gənc ailənin üzvü olan, azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malikdir.

Bu yeniliyə qədər şəhid ailəsinin üzvü (əri/arvadı, övladları), Milli Qəhrəman (özü, əri/arvadı, övladları), məcburi köçkün və ya ona bərabər tutulan şəxslər, ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər, ən azı 5 il dövlət ümumtəhsil məktəbində müəllim işləyən şəxslər, fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslər və idman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer) olan şəxslər güzəştli ipotekada yararlanmaq hüququ var idi.

Bundan əlavə həmin maddəyə 3.2.8-ci yarımbənd əlavə edilib:

Bu bənddə də göstərilir ki, ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər də güzəştli ipoteka şərtlərindən yararlana bilər.

Qaydaya əsasən, Fondun Himayəçilik Şurası tərəfindən kredit, o cümlədən güzəştli ipoteka krediti üzrə illik faiz dərəcələri müəyyən olunana qədər, kredit üzrə illik faiz dərəcəsi 8 faizdən, güzəştli ipoteka krediti üzrə isə 4 faizdən çox olmamalıdır.

"Bu gün Prezident İlham Əliyev tərəfindən "Media haqqında" Qanunun təsdiq olunması, eyni zamanda, güzəştli ipotekadan yararlanan şəxslərin siyahısına dəyişiklik edilməsi barədə fərmanın imzalanması islahatların tərkib hissəsidir". Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov Real TV-yə müsahibəsində deyib.

MEDİA rəhbəri bildirib ki, öncədən "Media haqqında" Qanunda göstərilmiş imtiyazlar məhz sosial rifahın gücləndirilməsi ilə bağlı görülən tədbirlər idi: "Fərmana əsasən, artıq jurnalistlər də güzəştli kateqoriyaya daxil edildilər və digər kateqoriyadan olan şəxslərlə bərabərhüquqlu oldular. Güzəştli ipotekadan istifadə edən şəxslərin siyahısına dəyişiklik edilməsi ilə bağlı təklif media subyektləri və jurnalistlərin özlərinin təklif və müzakirəsində olan məsələ idi və bu, islahatların tərkib hissəsinə çevrildi".

Xatırladaq ki, sözgedən fərmana əsasən, gənc ailənin üzvü olan, azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər, eləcə də, gənc ailənin üzvü olmayan ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər güzəştli ipoteka krediti ala biləcəklər.

Yeni Media Qanununun və bu Fərmanın jurnalistlər üçün necə böyük sosial imkanlar açdığı artıq real şəkildə məlum oldu. Məlum olduğu kimi, jurnalistlər cəmiyyətin ən aztəminatlı, aşağı gəlirliliyə malik kateqoriyalarından biridir. Jurnalistlərin 99 faizinin hazırkı bazar qiymətləri ilə mənzil almaq və ya ipoteka krediti ilə götürmək imkanları yox idi. Bunu nəzərə alan ölkə Prezidenti jurnalistlər üçün 3 binanın tikintisi ilə bağlı sərəncamlar verib və onlardan 2-si (410 mənzil) jurnalistlərə paylanıb, digər 1 bina isə (255 mənzil) tikilib hazır olub və yaxın vaxtda tələblərə cavab verən media işçilərinə paylanacaq. Lakin ölkədə minlərlə jurnalist olduğunu və bu binalara isə cəmi 665 mənzil olduğunu nəzərə alsaq mənzilə ehtiyacı olan lakin ala bilmədiyindən kirayələrdə ağır şəraitdə yaşayan minlərlə jurnalist üçün bu sevindirici xəbərdir.

Dövlət əlbəttə, bütün jurnalistləri pulsuz mənzillə təmin edə bilməz. Lakin elə bir şərait yarada bilərdi ki, onlar öz imkanları hesabına güzəştli şərtlərlə mənzil ala bilsinlər. İndi bu Fərmanla həmin hüquq jurnalistlərə verildi. Artıq media işçiləri güzəştli sosial ipoteka almaq hüququna malik oldular və öz imkanları hesabına mənzil sahibi ola biləcəklər. Nəticədə bu sahədə çalışanların ən əsas sosial problemindən birinin- həm də ən çətininin dövlət tərəfindən həll edildiyini demək olar.

Qaldı ki, jurnalistlərin rəsmi əmək müqaviləsi əsasında işləməsinə və normal əməkhaqqı alması məsələsinə, bunun bağlı MEDİA tərəfindən işlər həyata keçirilir. Məsələn, MEDİA-dan qrant və yardımlar alan redaksiyalara əməkdaşlara minimum 600 manat maaş ödənilməsi tələbi qoyulub. Bundan başqa işçilərin rəsmi əmək müqaviləsi ilə çalışması da tələb edilir. Bu tələblər jurnalistlərin iş və əmək hüquqlarını qorumaqla yanaşı, onların ən azı orta əməkhaqqı məbləğində maaş almalarını təmin edir. Jurnalistlərin mənzil-məişət qayğılarının azalması onların işinin keyfiyyətinə müsbət təsir göstərəcək və bu da özünü həm media sahəsində inkişafa, həm də cəmiyyətin maarifləndirilməsi və məlumatlandırılması işində peşəkar yanaşmada aydın büruzə verəcək.

Bütün bunlar isə öz növbəsində mediamızın inkişafı, peşəkar işləməsi, bu sahədə qayda-qanun yaradılmasını təmin edir. Ümumiyyətlə, son 1 ildə bu sahədə xeyli işlər görülüb. MEDİA-nın yaradılması, onun jurnalistlər üçün peşə təlimləri təşkil etməsi, müxtəlif layihələr, müsabiqələrlə bu sahədə inkişaf meyillərinin yaradılması, tələblərə cavab verən media subyektlərinin qrantlar və yardımlarla dəstəklənməsi, mediada peşə etikasına və qanunlara riayət edilməsi üçün qoyulan tələblər, yeni Media Qanununun qəbul edilməsi və nəhayət prezident fərmanı ilə jurnalistlərin sosial ipoteka almaq imkanlarının yaradılması- bütün bunlar bu sahədə vəziyyəti kökündən dəyişməyə hesablanmış addımlardır. Hələ proses yeni başlayıb, şübhə yoxdur ki, tezliklə media sahəsində tamamilə yeni vəziyyət yaranacaq.

Bu ildən etibarən Media qanununun tətbiq olunması, bu sahədə islahatların aparılması, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi tezliklə öz müsbət nəticələrini verəcək. Yekin nəticədə Azərbaycan mediasının inkişafının, beynəlxalq satandartlara uyğun peşəkar çalışmasının və bu sahədə qayda qanunun bərqərar olmasının, həmçinin jurnalistlərin iş və əmək hüquqlarının təmin edilməsinin bütün cəmiyyətimiz və dövlətimiz üçün faydalı olacağını görmək çətin deyil.

***Elçin Bayramlı***

# Yeni qəbul olunan qanuna MEDİA KAPİTANLARININ BAXIŞI - SORĞU

***Xəbər verdimiz kimi, Prezident İlham Əliyev "Media haqqında" qanunu təsdiqləyib. Bu qanun media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.***



SİA mövzu ilə bağlı media kapitanlarının fikirlərini öyrənməyə çalışıb:



**Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Azərbaycan Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli:** ""Media haqqında" yeni qanun bütün media ictimaiyyətinin iştirakı, müzakirəsi ilə hazırlanıb və qəbul edilib. Bu baxımdan Azərbaycan media ictimaiyyətinin iradəsini, arzu və istəklərini ifadə edir. Bu layihəni təsdiqlədiyi üçün cənab Prezidentə təşəkkür edirik. Qanun yeniliklərlə zəngindir. Xüsusi olaraq onlayn media sferasını tənzimləmə əhatəsinə aldığı üçün çox faydalıdır. 20 ilə yaxındır ki, onlayn media mövcuddur, amma onun hüquqi tənzimlənməsi indiyədək yetərli deyildi. İlk dəfədir ki, onlayn media sferası bu qədər əhatəli, detallı şəkildə tənzimləməyə alınır. Onlayn medianın statusu, strukturu barədə təsəvvürləri konkretləşdirir. Bu, onlayn media sferasında çalışan jurnalistlər üçün də çox faydalıdır, çünki, onların hüquq və vəzifələrinin, statuslarının tam təsnifatını verir. Qanunun gətirdiyi mühüm yeniliklərdən biri də media reyestrinin tətbiq edilməsidir.

Reyestrin tətbiq edilməsi ölkədə KİV qurumları və jurnalistlərin statistikasının dəqiqləşdirilməsinə yardım edəcək, statusu bilinən jurnalistlər üçün sosial proqramların hazırlanmsını, sosial güzəştlərin tətbiqini asanlaşdıracaq. Təsadüfi deyil ki, dünən cənab Prezident "Media haqqında" qanunu imzalamaqla yanaşı, həm də ipoteka kreditlərinin verilməsi şərtlərinə əlavə və dəyişiklik edilməsi barədə sərəncam imzaldı. Bu onu göstərir ki, media sferasında nizam-intizam yarandıqca, sərhədlər bəlli olduqca, sosial proqramların tətbiqi də asanlaşacaq".

**"Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev:** "Ümumilikdə Azərbaycanda media qanunvericiliyində, media praktikasında yeni mərhələ başlayır. Köhnə fəaliyyətdə olan qanunun tətbiqi zamanı bir sıra boşluqlar, ziddiyyətlər meydana gəlirdi. Bunlar uzun müddət həm mediadakı proseslərin tənzimlənməsi, həm də jurnalistlərin sosial müdafiəsinin daha fərqli şəkildə təşkil olunmasında mənfi rol oynayırdı. Ona görə də yeni



qanun və Medianın İnkişafı Agentliyinin fəaliyyəti haqqında əsasnamənin yenilənməsi, dəyişdirilməsi praktikada öz müsbət nəticələrini göstərəcək. Hər şeydən əvvəl bütün jurnalistlər üçün çox vacib olan sosial məsələlərin həllində açılan yeni imkanları qeyd etmək istəyirəm. İllərdir ki, Azərbaycan jurnalistləri mənzil məsələlərinin həlli üçün ipoteka imkanına əlçatmaz zirvə kimi baxırdılarsa, bu gün yeni qanun jurnalistlərin bu arzusunu tam şəkildə həyata keçirməyə imkan verir. Digər tərəfdən çox vacib məsələlərdən biri jurnalistlərin, media orqanlarının reyestrinin tətbiqidir. Bu da media praktikasında və media qanunvericiliyində tam şəkildə yeni bir reallıqdır. Media Reyestrinin tətbiq olunmasını bəziləri çox qorxunc bir obrazda təsəvvür etsə də, əslində burada qorxulu heçnə yoxdur. Media Reyestri mediadakı proseslərin məhdudlaşdırılmasına yox, ən mütərəqqi təzahürlərin daha geniş inkişaf reyslərinə çıxmasını təmin edir. Media Reyestri ölkədə media siyasətinin daha düzgün və əhatəli müəyyən olunmasında öz təsirli rolunu göstərəcək. Bundan əlavə çap və audiovizual media ilə sosial şəbəkələrin arasında dəqiq sərhəddin müəyyənləşdirilməsi bizim yeni başlayan media praktikasının ən mühüm təzahürlərindən biridir. Açığı desək, bu günə qədər bu barədə mübahisələr çox olurdu. Çox yaxşı haldır ki, yeni qanun çap, audiovizial medianın jurnalistləri ilə sosial şəbəkə aktivlərinin arasında dəqiq sərhədləri müəyyənləşdirir və sosial şəbəkə aktivlərinin fəaliyyətinin tənzimlənməsi yönümündə hər hansı bir normativ müəyyənləşdirmir. Yeni qəbul edilən qanun media sferasında meydana çıxan çətinlikləri aradan qaldırmaqda olduqca əhəmiyyətli rol oynayır".

**"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı:** ""Media haqqında" qanunun qüvvəyə minməsi mətbuat camiəsi üçün çox mühüm əhəmiyyət kəsb edən bir hadisədir. Bu qanun media-cəmiyyət, media-dövlət münasibətlərinin tənzimləməsinin yeni media strukturlarının hüquqi status və öhdəliklərinin müəyyənləşməsinə xidmət edən bir qanundur. Ən əsası da bu qanunda elektron kütləvi informasiya vasitələrinin,



saytların və internet üzərindən yayılan televiziyaların hüquqi statusunun müəyyənləşməsi baxımından qanunun qüvvəyə minməsinin çox mühüm əhəmiyyəti var. Baxmayaraq ki, əvvəlki qanunda yeni media strukturlarının hüquqi statusunun müəyyənləşdirilməsi maddələri yox idi. Bütövlükdə qanunun medianın iqtisadi müstəqilliklərinin genişləndirilməsinə, keyfiyyətli jurnalistikanın inkişafına təkan verəcəyinə əminəm. Media Reyestri haqqında müddəanın da qanuna salınması tamamilə qanunidir. Çünki bu gün Azərbaycanda peşəkar mediaya alternativ olmaq istəyən strukturlar artıq meydandadır. İkinci bir tərəfdən jurnalist adından şərəfsizcəsinə istifadə edən rekert jurnalistlər var. Fərdi şəkildə fəaliyyət göstərən jurnalistlərin, bütövlükdə media strukturlarının bu reyestrdən keçirilməsi gələcəkdə dövlətin, mətbuatın inkişafı üçün jurnalistlərin sosial imkanlarının, sosial vəziyyətlərinin yaxşılaşdırılması üçün atacağı addımlara bağlı bir məsələdir.

Dövlətin mətbuata, jurnalistika üçün müəyyənləşdirdiyi güzəştlərdən istifadə etmək istəyənlər media reyestrindən qeydiyyatdan keçməlidirlər. Ümumiyyətlə "Media qanunu" media məcəlləsidir. Burada həm çap, həm onlayn medianın, eyni zamanda televiziyaların internet üzərindən yayılan internet televiziyalarının hüquqi statusunun müəyyənləşdirilməsi baxımından bu qanun əsas hüquqi baza olaraq qəbul olunur. Düşünürəm ki, bu qanunun qüvvəyə minməsi Azərbaycan media mühitinin şəffaflaşmasına və inkişaf etməsinə xidmət edir".

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid:** "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Media haqqında" qanunu təsdiq etdi. Hesab edirəm ki, bu qanun Azərbaycanın media sahəsinin inkişafında mühüm rol oynayacaq bir sənəddir. Bilirik ki, təxminən bir il müddətində Medianın İnkişafı Agentliyinin mütəxəssisləri və ekspertləri bu qanun üzrə işlədilər. Bu qanun müzakirəsi müxtəlif redaksiyalarda



keçirildi. Eyni zamanda Milli Məclisdə bir neçə dəfə mütəxəssislər ilə, media rəhbərləri ilə müzakirə aparıldı. Müzakirələrdə çoxlu fərqli baxışlı insanlar öz fikirlərini bildirdilər. Hər halda geniş ictimai müzakirəyə səbəb olan bu qanun layihəsi göstərir ki, bizim cəmiyyətimizin mediaya marağı böyükdür. Nəhayət ki, Milli Məclisdə müzakirələrdən sonra cənab Prezident tərəfindən təsdiq olunan bu qanun medianın inkişafında mühüm rol oynayacaq. Biz informasiya texnologiyalarının inkişafı ilə bağlı tez-tez deyirdik ki, yeni media yaranıb və bu medianın tənzimlənməsi məsələsinin qanunla əhatə olunmasında problemlər və çətinliklər var. Bu baxımdan artıq yeni qanun çox əhatəli və genişdir. Bu qanun bütün media aspektini əhatə edir. Burada audiovizual media, həm də çap mediası, onlayn və informasiya agentlikləri var. Bu qanun layihəsində həm media subyektləri, həm jurnalistlərə müəyyən güzəştlərin edilməsi kimi məsələlər var. Düşünürəm ki, bu qanunun qəbul edilməsi ilə peşəkarlığın artması müşahidə olunacaq. Eyni zamanda mediadan kənar adamların, qeyri-peşəkarların mediaya axınının qarşısı alınacaq".

**"Aznews.az" saytının baş redaktoru Taleh Şahsuvarlı:** "Bildiyimiz kimi Azərbaycanda yeni "Media haqqında" qanun cənab Prezident tərəfindən təsdiq olunub. Fikrimcə, bu qanunun hazırlanması, qəbul edilməsi və təsdiq olunması çox böyük zərurətdən irəli gəlir. Bildiyimiz kimi kütləvi informasiya haqqında qanun çox uzun illər öncə



qəbul edilmişdi. Zaman-zaman bu qanun müəyyən dəyişikliyə məruz qalıb. Baxmayaraq ki, bu qanun praktiki olaraq müasir dövrün çağırışlarına cavab vermədiyindən, media sektorunun fəaliyyətinin tənzimlənməsi baxımından o qədər də təsirli ola bilmirdi. Hazırkı, qanun isə məhz yeni çağırışlara uyğun olaraq və hərtərəfli şəkildə hazırlanıb. Əlbəttə heç bir qanun ideal deyil. Gələcəkdə konkret reallığın şərtlərindən asılı olaraq bu qanunda da müəyyən dəyişikliklər edilə bilər. Ancaq bütövlükdə bu qanunun qəbulu Azərbaycanda medianın nüfuzunun yüksəkdilməsində, jurnalist hüquqlarının qorunmasına, jurnalist məsuliyyətinin artmasına, o cümlədən peşəmizin arzuolunmaz şəxslərdən təmizlənməsinə çox ciddi rol oynayacaq".

***Arzu Qurbanzadə***

# “Paşinyan Azərbaycanın tələblərini istəməsə də, yerinə yetirməlidir”

**SİA politoloq Samir Hümbətovun müsahibəsini təqdim edir:**



**- Armen Sarkisyan Qərb və Şərq arasında ilişib qalan bir obraz kimi xarakterizə edilirdi. Sizcə, onun siyasi meydandan çəkilməsində vacib rol oynayan amillər hansılar idi?**

- Armen Sarkisyan siyasi karyerasında bəzi qaranlıq məqamlar var idi. Bbildiyimiz kimi, Armen Sarkisyanın Qərblə ciddi əlaqələri var idi. Həmin əlaqələr budur ki, uzun müddət Ermənistanın qərb ölkələrin səfiri olmuşdur. Armen Sarkisyanın prezident olduğu müddətdə atdığı addımlardan görünür ki, Qarabağ klanının dəstəkçisidir. Robert Koçaryan və Serj Sarkiyanın dövründə qərbdə diplomat kimi fəaliyyət göstərib. Baş nazir kimi Nikol Paşinyan gələndə Qərb ölkələrinin bilavasitə iştirakçısıdır. Ermənistanda prezident səlahiyyətləri məhduddur. Ermənistan Prezidenti Armen Sarkisyan müddət keçdikcə Ermənistanın siyasi proseslərindən uzaqlaşması daha da sürətləndi. Nikol Paşinyanın isə siyasi nüfuzu artdı. Nikol Paşinyan ilə Armen Sarkisyan arasında rəqabətin şahidi olmuşuq. Armen Sarkisyanın siyasi bioqrafiyası onu göstərir ki, siyasi cəhətdn o qədər təcrübəli deyil və Qərb ilə Rusiya arasında balans yarada bilmədi. Ermənistan prezidenti bunu özü yaxşı başa düşüb ki, o, siyasi müstəvidə qabağa gedə bilməyəcək.

**- Bəzi siyasi şərhçilər Azərbaycanın qələbəsinin Ermənistan tarixi üçün şans kimi qiymətləndirirlər. Müharibədən sonrakı reallığı daha geniş mənada necə izah oluna bilər?**

- İkinci Qarabağ savaşına qədər Ermənistan siyasi elitasında belə fikir formalaşmışdı ki, Ermənistan Azərbaycanla ortaq nöqtədə ola bilməz və güzəştə gedə bilməz. İkinci Qarabağ savaşında Paşinyanın özü müharibənin başlamasına rəvac verdi. ”Qarabağ Ermənistanındır” deməklə bu prosesləri özü başlatdı. Paşinyan başa düşürdü ki, Azərbaycanla bacaracaq gücdə deyil. Bu müharibədə Ermənistan cəmiyyəti də başa düşdü ki, gec-tez özlərinin olmadığı torpaqları qaytarmalı olacaqlar.

**- Antalyada Azərbaycan, Türkiyə və Ermənistan arasında görüşlərin keçirilməsi gözlənilir. Görüşündən gözləntiləriniz nələrdir?**

- Bu forum bir neçə ildir ki, Türkiyədə təşkil olunur. Bu ildə təşkil olunması gündəmdədir. Nəzərə alsaq ki, Türkiyə və Ermənistan arasında 1 aydan uzun müddətdir ki, dialoq mühiti yaranmaqdadır. Bu mühitdə Türkiyənin regionda aktiv siyasət yürütməsinin bir nəticəsidir. Burada əsas hədəf Ermənistanı yola gətirməkdir və regiondakı reallığı qəbul etdirib proseslərdə regionun roluna uyğun olaraq hərəkət etdirməkdir. Diplomatiya forumunda iştirak etmək Ermənistanın proseslərə addım atmasının işarəsidir. Proseslər normallaşmağa doğru irəliləyir. Məqsəd regionda sülhün təmin olunmasıdır. Paşinyan Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyinə nail olmaq üçün Azərbaycan və Türkiyə ilə əməkdaşlığa açıq olmalıdır. Azərbaycanın tələblərini istəməsə də, yerinə yetirməlidir.

**- Parlament Azərbaycan və Türkiyə arasında müttəfiqliyə dair Şuşa Bəyannaməsini təsdiq etdi. Bundan sonra müttəfiqlik münasibətlərində hansı gəlişmələri görə bilərik, müttəfiqliyin güclənməsi üçün daha hansı addımlar atıla bilər?**

- Azərbaycan müstəqillik əldə olunduqdan sonra 3 dəfə belə genişmiqyaslı müqavilə imzalanıb. Birincisi 1994-cü ilin 9 fevralında, ikinci müqavilə 2016-ci il 16 avqustda, üçüncü isə Şuşa bəyannaməsidir. Hər üç bəyannamələrdə qeyd olunan maddələrin əsası Qars müqaviləsinin ruhuna uyğun olaraq hazırlanıb. Şuşa bəyannaməsinin tarixi ruhu Qars müqaviləsinə dayanır. Azərbaycanın Türkiyə ilə münasibəti onsuz da yüksək səviyyədədir. Bu, münasibətləri möhkəmləndirir, Türkiyənin bölgədə nüfuzunu artırır. Türkiyənin regionda olmasının birinci müsbət xüsusiyyəti odur ki, regionda stabillik yaranır, ikinci cəhət isə odur ki, Azərbaycanın mövqeləri möhkəmlənir. Məsələn, Hegemon ölkələr Gürcüstana və Ermənistana etdikləri təzyiqləri Azərbaycana edə bilmirlər. Çünki Azərbaycan Türkiyə ilə hərbi müttəfiqdir. Azərbaycana olan təhdid Türkiyəyə qarşı olan təhdiddir.

**- Bəs türk ölkələri arasındakı birlik, inteqrasiya ideyasının taleyi necə olacaq? Hesab olunur ki, Qazaxıstandakı son olaylar bu ideyaya zərbə vurdu.**

- Türkdilli ölkələrin Qazaxıstana müdaxilə etməməsinin özü belə doğru addımdır. Çünki əhalidə türklərə qarşı aqressiya formalaşacaqdı. Yaxşı ki, türkün əli türkün qanına batmadı. Rusiyanın Qazaxıstana müdaxiləsi isə Rusiyanı möhkəmləndirmədi, əksinə, zəiflətdi. Gördüyünüz kimi, Rusiya Qazaxıstana daxil olsa da, orada qala bilmədi. Baş verən proseslər türk birliyinə zərbə deyil.

***Qönçə Quliyeva***

# Elçin Mirzəbəyli: ”Media haqqında” Qanun media sektorunda həyata keçirilən islahatların hüquqi konstruksiyasıdır



1999-cu ildə qəbul edilən ”Kütləvi İnformasiya Vasitələri haqqında” Qanuna sonradan çoxsaylı əlavə və dəyişikliklərin edilməsinə baxmayaraq, sözügedən hüquqi-normativ akt informasiya və kommunikasiya sektorundakı müasir çağırışlara, yeni dövrün media anlayışına cavab vermirdi və bu baxımdan da medianı əhatə edəcək bilən hüquqi tənzimləmə mexanizmlərinin yer aldığı ”Media haqqında” Qanunun qəbul edilməsi zərurətə çevrilmişdi. Qanun layihəsi ətrafında aparılan çoxsaylı müzakirələr də müəyyən qeyri-obyektiv yanaşmalara, ilk baxışda ziddiyyətli görünən fikir ayrılıqlarına baxmayaraq, əslində, peşəkar medianın gözləntilərini nümayiş etdirir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ”Xalq cəbhəsi” qəzetinin baş redaktoru, siyasi ekspert Elçin Mirzəbəyli bildirib.

Baş redaktor diqqətə çatdırıb ki, dövlətimizin başçısı tərəfindən təsdiq olunmuş Qanunda nəzərdə tutulan hüquqi mexanizmlər tətbiq olunduqca, sənədə prosesi kompleks şəkildə görə bilmədiyi üçün spektrik yanaşan həmkarlarımızın da gözləntilərini doğruldacaq. ”Media haqqında” Qanun, əslində, media sektorunda həyata keçirilən islahatların hüquqi konstruksiyasıdır. Bu konstruksiya olmadan islahatların bütün komponentlərini həyata keçirmək mümkün olmayacaqdı. ”Media haqqında” Qanun möcüzə yaratmayacaq, illərdən bəri yığılıb qalmış problemləri bir göz qırpımında həll etməyəcək, amma həlli mexanizmlər ortaya qoyacaq ki, bu da prosesin içərisində yer alan və ölkə mediasını ən azı öz çalışdığı, rəhbərlik etdiyi hüquqi subyekt çərçivəsində inkişaf etdirməyi arzulayan şəxslərin ideyalarını gerçəkləşdirmələri və layiq olduqları yeri tutmaları üçün yetərlidir.

E.Mirzəbəylinin sözlərinə görə, Qanun peşəkar media ilə ”media” adına iddia edən, əslində isə söz və fikir azadlığından, jurnalistikadan özlərinin qeyri-qanuni əməlləri üçün istifadə etməyə çalışanlar arasındakı ”qırmızı xətt”i müəyyənləşdirəcək və sonuncuların qol-qanad açmamaları üçün hüquqi məhdudiyyətlər yaradacaq, gerçək və məsuliyyətli söz və ifadə azadlığının keşiyində dayanacaq. ”Əslində, islahatlar yeni başlayır. Bu günə qədər görülən işlər, həyata keçirilən layihələr, sadəcə, medianın yeni dövrə - islahatların real mərhələsinə hazırlanmasına xidmət edirdi. Şübhəsiz ki, sadəcə, ”Media haqqında” Qanunu, yaxud sözügedən sənədin ayrı-ayrı müddəalarını oxumaqla, subyektiv təhlil süzgəcindən keçirməklə reallaşdırılması nəzərdə tutulan islahatların tam mənzərəsini görmək mümkün deyil. Amma tam əminəm ki, həyata keçirilməsi nəzərdə tutulan islahatların hər addımında Qanunun bu və ya digər maddəsinin, hətta ayrı-ayrı ifadə və müddəalarının hansı məqsədə xidmət etdiyini görmək, islahatların səmərəliliyinə inanmaq, prosesin içində fəal şəkildə yer almaq mümkün olacaq”. - deyə E.Mirzəbəyli vurğulayıb.

Baş redaktor qeyd edib ki, qanun peşəkar medianın və bu sahəyə peşəkar jurnalistika ilə məşğul olmaq məqsədilə gələn fərdlərin, bütövlükdə isə cəmiyyətin maraqlarının qorunmasına, media subyektlərinin yaradıcılıq və redaksiya müstəqilliyinin ən etibarlı şəkildə müdafiə edilməsinə, ifadə azadlığının möhkəmləndirilməsinə yönəlmiş təminat mexanizmlərinin daha da gücləndirilməsinə xidmət edir və bütün bu məqsədlərin yerinə yetirilməsi üçün dəqiq, manipulyasiyalara yol açmayacaq hüquqi mexanizmlər formalaşdırır: ”Qanun, eyni zamanda, tənzimlənən və tənzimlənməyən media növləri arasındakı sərhədləri dəqiq şəkildə müəyyənləşdirir, jurnalist anlayışına daha dərin və fundamental məna verir, peşəkar jurnalistikanın nüfuzunun və ictimai çəkisinin artmasına zəmin yaradır. Bununla yanaşı, hazırda informasiya və kommunikasiya sahəsində mövcud olan, lakin peşəkar media anlayışına uyğun gəlməyən digər fəaliyyət növlərinin fəaliyyətini məhdudlaşdırmır, əksinə, bu sahədə peşəkarlıq nümayiş etdirən şəxslərin də heç bir məhdudiyyət tətbiq edilmədən ”jurnalist” anlayışının sərhədləri çərçivəsində yer almasına imkan yaradır. Yəni, qanun sərhəd çəkmir, amma imkan yaradır ki, peşəkar media ilə məşğul olan şəxslər və subyektlər öz sərhədlərini müəyyənləşdirsinlər”.

Ekspert vurğulayıb ki, Qanunda beynəlxalq təcrübədə yer alan bir çox komponentlərlə yanaşı, jurnalistlərə könüllülük əsasında vəsiqələrin verilməsinin də nəzərdə tutulması, əslində, jurnalistlərin söz və ifadə azadlığına təminat verən beynəlxalq sənədlərin və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq, hüquqlarının hərtərəfli müdafiəsinin təşkil edilməsinə imkan yaradır, jurnalistlərin fərdi söz, ifadə və yaradıcılıq azadlıqlarının keşiyində dayanır.

”Əslində, qanunun ayrı-ayrı müddəalarını şərh etməklə hər bütöv fikrin altında yatan hüquqi məna yükü haqqında sonsuza qədər yazmaq olar. Hesab edirəm ki, yaxın zamanlarda Medianın İnkişafı Agentliyi qanunun ayrı-ayrı müddəalarının izahı üçün layihələr həyata keçirəcək və mütəxəssislərin iştirakı ilə ”Media haqqında” Qanunun mahiyyəti, həmçinin qanundan yol alan islahatlar haqqında bu sektorda fəaliyyət göstərən hər kəsin daha ətraflı məlumatlandırılmasına çalışacaq”, - deyə baş redaktor bildirib.

# “Qanun mediamızın inkişaf tarixində yeni bir mərhələ təşkil edəcək”



***“Media haqqında qanunun tətbiq edilməsi mediamızın inkişaf tarixində tamamilə yeni bir mərhələ təşkil edəcək. Hər şeydən öncə ona görə ki, yeni qanun bu inkişafı bütün parametrlərlə təmin edə biləcək hüquqi əsaslar və azadlıqları özündə ehtiva edir ki, bu da informasiya cəmiyyətinin zəruri tələblərindən biridir". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.***

Onun sözlərinə görə, yeni cəmiyyət media münasibətləri kontekstində aktual olan mühüm məsələlərdən biri də peşəkar və məsuliyyəti media problemi idi ki, yeni qanunda bu məsələləri tənzimləyən hüquqi mexanizmlər də öz əksini tapıb: ”Yeni media reystrinin önümüzdəki 6 ay ərzində yaradılmasının nəzərdə tutulması, jurnalistlərin tanınan hüquqlarının müdafiəsi mexanizminin təkmilləşdirilməsi və daha operativ təşkil edilməsi, tənzimlənən və tənzimlənməyən media növləri arasında dəqiq sərhədin müəyyən edilməsi, ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılmas kimi strateji istiqamətlərin inkişafı üçün hüquqi əsasların yaradılması yeni qanunun tətbiqi sayəsində mediamızın əldə edə biləcəyi mümüh nailiyyətlər kimi xarakterizə oluna bilər. Ən başlıca məsələlərdən bir yenə də jurnalistlərin məişət problemlərinin həll edilməsi və mənzil-kommunal şəraitlərinin yaxşılaşdırılması məsələsidir. Bu mənada jurnalistlərin güzəştli kreditlərdən yararlanmaqla mənzil problemlərini həll edə bilmələri üçün hüquqi bazanın yaradılması Azərbaycan dövlətinin jurnalistə növbəti qayğısıdır. Bu yeni yanaşma jurnalistlərin məişət problemlərini kütləvi və birbaşa həlletmə imkanları yaradır. İki kateqoriyada güzəşt hüququnun tanınması isə həm 5 il jurnalist kimi əmək faliyyəti olan jurnalistlərə, həm ailə statusunda digərlərinə isə 15 illik əmək stajı əsasında nəzərdə tutulur. Bu da demək olar ki, davamlı jurnalistika fəaliyyəti ilə məşğul olan bütün jurnalistləri əhatə edir. Ona görə də media qanunun tətbiqinə paralel olaraq jurnalistlərin güzəştli kreditlərdən istifadə etməsi üçün hüquqi bazanın yaradılması da mediamızın inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsi kimi də xarakterizə edilməlidir”.

***Arzu Qurbanzadə***

# Azərbaycan ordusu yeni və irimiqyaslı zərbə endirməyə hazırdır!



## *Qarabağda qalan separatçı qalıqları sadomazoxizmçi iddiaları ilə özlərini real məhvə doğru sürükləyirlər*

***Son zamanlar Qarabağ regionunda erməni təxribatlarının baş verməsi istər-istəməz və haqlı olaraq belə bir sual yaradır: Niyə və hansı səbəblərə görə Azərbaycanın suveren ərazilərində qanunsuz erməni silahlıları qalmaqda davam edirlər? Özü də ərazilərimizə müvəqqəti dəvət edilmiş Rusiya sülhməramlıları kontingentinin (RSK) gözləri qarşısında...***



Təkcə bir neçə gün əvvəl Tərtər rayonunun Qapanlı kəndinin qanunsuz erməni silahlıları tərəfindən atəşə tutulması faktı da belə deməyə əsas yaradır ki, erməni separatçıları məhz məsuliyyətsiz fəaliyyətləri ilə daha çox diqqət şəkən RSK-nın arxasından öz mənfur niyyətlərini reallaşdırmağa cəhdlər göstərirlər. Və beləliklə fakt budur ki, 44 günlük müharibə başa çatdıqdan sonra erməni silahlıları dəfələrlə üçtərəfli bəyanatın bəndlərini pozaraq neinki Qarabağda, hətta ara-sıra Azərbaycan-Ermənistan sərhədlərində belə lokal döyüşlər daxil olmaqla (16 noyabr 2021-ci ildəki silahlı insident) aşkar əməllərini törədiblər. Lakin onu da qeyd edək ki, 10 noyabr 2020-ci ildən 2022-ci ilin fevralına qədər mülki əhalimizin yaşadıqları ərazilərdə bu kimi hadisənin baş verməsi ilkdir.

**RSK-nın boşluqları...**

Məhz Tərtərdəki olay RSK-nın fəaliyyətindəki boşluqları kifayət qədər üzə çıxarmış oldu. Halbuki, daha əvvəlcədən də məlum idi ki, istər Xankəndidə qalan quldur rejim qalıqları, istərsə də onları İrəvandan idarə edən dairələr Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə inteqrasiyası prosesinin qarşısını hər vəchlə almağa cəhdlər göstərirlər. Sözügedən məsələdə RSK-nın da öz payının olduğunu bugünə qədər bir sıra faktlarla sübuta yetirmək olar. Belə ki, bir neçə dəfə Qarabağ erməniləri Azərbaycan ordusunun nəzarəti altındakı ərazilərə keçməyə çalışsalar da, RSK onların qarşısını kəsərək qondarma rejimə təhvil veriblər.



Onu da xatırladaq ki, Tərtərdə baş vermiş insidentə bənzər hadisələr işğal zamanı demək olar ki, hər gün yaşanırdı, lakin təqribən 15 ay bundan əvvəl Ermənistan birdəfəlik sülhə məcbur edildi və Azərbaycan torpaqları işğaldan azad olundu. Bunun ardınca isə məhz RSK-nın Qarabağa müvəqqəti yerləşməsinə paralel olaraq qanunsuz erməni silahlıları silahlarını yerə qoymalı, Ermənistan silahlı qüvvələrinin hərbi birlikləri isə Qarabağdan çıxarılmalı idilər. Bu proses əvvəl-əvvəl qismən də olsa başladı, amma bu günün özündə Qarabağda Ermənistan silahlı qüvvələrinin hərbi hissələrinin qaldığı, Laçın dəhlizindəki boşluqdan hərbçilərin buraxılması faktları da hər kəsə məlumdur. Hansı ki, Azərbaycanın suveren ərazilərində heç bir qanunsuz silahlı dəstələr olmamalı və onlar terror təhlükəsi saçmamalıdırlar.

ANALİTİK-AKTUAL





Ancaq görünən budur ki, erməni separatçıları rus sülhməramlılarının kürəkləri arxasından məhz öz qanunsuz hərəkətlərini icra edirlər: onlar Azərbaycan Respublikasının ərazisindədirlər və Azərbaycan Respublikasının vətəndaşlığına malik deyillər və ən maraqlısı - onlar heç Ermənistanın da vətəndaşları deyillər və bütün bunlara rəğmən, qanunsuz qaydalarda Ermənistanın silahlı qüvvələrinin tərkibində yer alırlar. Üstəlik, Qarabağ ermənilərinin əsla Azərbaycanın tərkibində qala bilməməsini "bəyan edən" Xankəndidəki feyk-"dövlət" imitasiyası da öz yerində...

## Qanunsuz erməni silahlı birləşmələrinə qarşı antiterror əməliyyatlarının başlanması ehtimalı 100%-lik reallığa doğru inkişaf etməkdədir

Artıq bugünkü gündə kifayət qədər açıq və aydın şəkildə bu cür qənaətə gəlmək olar - onlar RSK-nın məsul olduğu ərazilərimizdə yeni müharibəyə hazırlaşırlar və belə davam edərsə, müharibənin, daha dəqiq desək, qanunsuz erməni silahlı birləşmələrinə qarşı antiterror əməliyyatlarının başlanması ehtimalı 100%-lik reallığa doğru inkişaf etməkdədir. Onlar xaricdə ultramillətçi və daşnakçılıq təbliğatı aparan diasporlardan maliyyə vəsaitləri alır, İrəvandakı klanları vasitəsi ilə öz planlarını icra etməyə davam edirlər. Yəni onların revanşizm maraqları heç də zəifləməyib və yalnız güclənir və biz bütün bunları yenə də RSK-nın (!) burnu altında, ya da qulağının dibində, eləcə də müşayiəti, hətta qoruması sayəsində qazılan səngərlərdən, hazırlanan müdafiə istehkamlarından, dayaq nöqtələrindən açıq-aşkar sezməkdəyik.

Bu gün RSK Qarabağdakı ermənilərlə Azərbaycan cəmiyyətinə inteqrasiya prosesi üçün heç bir iş aparmır, onlar yalnız anti-Azərbaycan təbliğatları ilə oturub-durur, bu da azmış kimi, varlıqlarını artıq sayı-hesabı itirilmiş təxribatçılıq əməlləri ilə (toponimlərimizi erməni adları ilə dəyişdirməklə, tarixi abidələrimizi erməniləşdirməklə, Qarabağ regionunu "dqr" adlandırmaqla və s.) sübuta yetirməyə çalışırlar. Əlbəttə ki, erməni separatçıları belə olduğu halda bütün addımlarını məhz revanşizmə, yeni müharibəyə tərəf yönəldirlər.





Separatçı "parlament" tərəfindən anti-Azərbaycan xarakterli addım olaraq Azərbaycanın tarixi Şuşa və Hadrut şəhərlərini, həmçinin digər azad edilmiş ərazilərini "işğala məruz qalmış" kimi göstərildiyini, bu torpaqların bərpasında iştirak edənlərə qarşı isə "sanksiyaların işə salınması" kimi sərsəm iddialarını da göstərmək olar.

Yeni və uzağı bir neçə gün davam edəcək müharibə dərhal onların birdəfəlik məhvi ilə nəticələnəcək

"Müstəqillik" tipli sözbazlıq oyunu təbii ki, heç bir mahiyyət və əhəmiyyət daşımır, amma bu məsələni ciddiyə də almamaq olmaz. Məhz kiçik səhvlər sonradan böyük problemlərə çevrilir və problemlər beşiyindəcə boğulmalı, məhv edilməlidir. Habelə, rus sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərimizdə yalnız hərbi deyil, həm də mülki obyektlərin inşası sübut edir ki, Xankəndidəki siyasi klounlar və onların diasporları, eləcə də Ermənistandakı havadarları çox yəqin ki, bu məsələlərə ciddi yanaşırlar. Sadəcə, aydın olmayan budur ki, axı onlar nəyə, hansı tərəflərə arxalanaraq öz "ciddiliklərini" nümayiş etdirirlər? Çünki yeni və uzağı bir neçə gün davam edəcək müharibə dərhal onların birdəfəlik məhvi ilə nəticələnəcək. Separatçılar hər tərəfdən (!) Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri ilə əhatə olunublar, mühasirəsində qalıblar. Onların Ermənistanla əlaqələrini təmin edən yeganə nəfəs borusu - Laçın dəhlizi də dərhal bağlanacaq. Ağır silah və texnikaları isə görünmədən, gizli şəkildə oralardan keçirdilə bilməzlər, o cümlədən, Azərbaycana məxsus ən müasir hərbi texnologiyalar qarşısında qazılan səngərlər və qurulan istehkamlar ümumiyyətlə faydasızdır, revanşistlərin adamları da yox səviyyəsindədir, belə ki, nə İrəvan, nə Şirak, nə Tavuş, nə də Sünik erməniləri bundan sonra əsla Qarabağa döyüşməyə cürət etməzlər, necə deyərlər, 44 günlük müharibədən sonra İrəvanın Yerablur məzarlığında da artıq yer qalmayıb...

Separatçıların inadkarlıqları artıq bir sıra dairələrdə sadomazoxizm kimi də adlandırılır və yeni onlar sanki aldıqları ağır, sarsıdıcı məğlubiyyətlərindən həzz alırlar. Çünki sirr deyil ki, Azərbaycan ordusu yeni və irimiqyaslı zərbə endirməyə hər an hazırdır və günügündən bu reallıq özünü daha çox göstərməyə başlayır.

**Rövşən RƏSULOV**

# "Zaal Ancaparidze: Qafqaz ölkələrinin maraqlarının uyğunlaşması regionun inkişafına yol açacaq"



***Gürcü xarici siyasət analitiki, Beynəlxalq Münaqişələr və Danışıqlar Mərkəzinin Qafqazda sülh dialoqu proqramının koordinatoru, "Georgia Today" qəzetinin keçmiş baş redaktoru Zaal Ancaparidze Caliber.Az-a müsahibəsində regiondakı proseslərlə bağlı maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

**- Gürcüstanın xarici siyasətini necə qiymətləndirirsiniz? Gürcüstan diplomatiyasının hansı müsbət və mənfi cəhətlərini qeyd edə bilərsiniz?**

- Mən Gürcüstanın hazırkı xarici siyasət kursunu real və praqmatik, nəzərəçarpacaq və ölçülə bilən nəticə kimi səciyyələndirərdim ki, nəticədə Gürcüstan 2012-ci ildən hakimiyyət dəyişikliyindən sonra hərbi münaqişələr olmadan, kövrək, lakin hələ də davam edən sülh şəraitində yaşayıb.

Gürcüstan imkan daxilində Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün diplomatik səylər göstərir. Bundan əlavə, ölkə Qara dəniz regionunda təhlükəsizliyin qorunmasına öz töhfəsini verir. Bəziləri Gürcüstanın indiki diplomatiyasının xüsusilə Rusiyaya qarşı daha az aqressiv və iddialı olduğunu düşünür. Amma hesab edirəm ki, Gürcüstan diplomatiyasını özünün həssas mövqeyi faktoru əsasında qurur.

**- 2020-ci ildə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Qarabağ münaqişəsini Azərbaycanın həll etməsi ilə bağlı fikrinizi bildirə bilərsinizmi?**

- Düşünürəm ki, Qarabağ münaqişəsinin yekun həlli üçün uzun və çətin yol qət etmək lazımdır. Hazır reseptlər yoxdur, amma ermənilərlə azərbaycanlılar arasında etimad və qarşılıqlı anlaşma tədricən bərpa olunmasa, Qarabağla bağlı əsas məsələlərdə mövqelər yaxınlaşmasa, həll yolunu tapmaq çətin olacaq. Buna həmişə üst-üstə düşməyən kənar oyunçuların və maraqlı tərəflərin maraqları əlavə olunur.

Göründüyü kimi, müəyyən qədər "qış yuxusundan" sonra Avropa İttifaqı regionda vasitəçi rolunu oynamağa başlayıb ki, bu da təbii ki, Rusiyanı sevindirməyəcək. Amma yenə də hesab edirəm ki, ilk müsbət addımlar artıq atılıb və onları inkişaf etdirmək lazımdır.

**- Yəni sizcə, Bakı ilə İrəvan arasında sülh mümkündür?**

- Qismən mən bu suala artıq cavab vermişəm. Düşünürəm ki, hətta ortamüddətli perspektivdə qarşılıqlı faydalı iqtisadi əlaqələrin inkişafı, yeni nəqliyyat kommunikasiyalarının açılması, beynəlxalq yükdaşımaların intensivləşməsi və insanlara iqtisadi səmərə verən yeni iş yerlərinin yaradılması şəraitində, çətin ki, kimsə yenidən münaqişə uçurumuna düşmək istəsin.

Düşünürəm ki, mümkün həll yollarından biri böyük dövlətlərin iki ölkə arasında barışıq təminatçısı kimi çıxış etməsi ola bilər. Amma yenə də təkrar edirəm, sülhə gedən yol sadə vətəndaşların şüurundan və ürəyindən keçir. Onlar ilk növbədə özlərini dünyanın dalğasına kökləməlidirlər.

**- Gürcüstan ərazi bütövlüyünü bərpa etmək üçün hansı addımları atır və bu istiqamətdə hansı irəliləyişlər əldə olunub?**

- Gürcüstan bəyan edib ki, öz yurisdiksiyası altında olan bu əraziləri yalnız siyasi yolla və sülh yolu ilə qaytarmaq niyyətindədir. Bu ərazilərin Rusiya tərəfindən müstəqil dövlətlər kimi tanınması və orada çox təsiredici silahlara malik rus qoşunlarının yerləşdirilməsinə əsaslanaraq, hərbi həll praktiki olaraq istisna edilir. Onların Tbilisidən cəmi onlarla kilometr aralıda olduğunu söyləmək kifayətdir.

Yuxarıda göstərilən səbəblərə görə uğur praktiki olaraq mövcud deyil. Cenevrədəki beynəlxalq müzakirələr ABŞ, ATƏT və Aİ-nin iştirakı ilə Gürcüstan, Rusiya, Abxaziya və Sxinvalinin nümayəndələrinin ünsiyyət qurduğu yeganə formatdır. Bu format hələ ki, heç bir nəzərəçarpacaq nəticə verməyib və fikrimcə, onu yeni çağırışlara və dəyişən geosiyasi şəraitə uyğun formatlaşdırmaq barədə düşünməyin vaxtı çatıb.

**- Ötən il Saakaşvilinin Gürcüstana qayıtmasını necə qiymətləndirirsiniz?**

- Saakaşvilinin geri qayıtması, daha doğrusu, yerli seçkilər ərəfəsində Ukrayna vətəndaşı kimi Gürcüstana qanunsuz daxil olması onun Vahid Milli Hərəkat partiyasının səslərinin bir neçə faizini toplasa da, eyni zamanda hakim "Gürcü arzusu" partiyasına daha çox səs əlavə etdi.

İstər-istəməz Saakaşvili "Gürcü arzusu"nun qələbəsinə töhfə verdi, eyni zamanda onlara başağrısı yaratdı və az qala siyasi gündəmin əsas mövzusuna çevrildi. Eyni zamanda, Saakaşvilinin tərəfdarlarının onu çoxminlik izdihamla qarşılayacağı, həbsdən xilas edəcəyi, daha bir inqilab edəcəyi ilə bağlı gözləntiləri özünü doğrultmadı.

Qeyri-adekvat hərəkətləri ucbatından onun siyasi fəaliyyəti zəifləyib. Onun azad edilməsi üçün hərəkat hələ də çox ləng gedir.

**- Ötən il Gürcüstan üçün hansı il oldu?**

- 2021-ci il sınaqlar və ümidlər ili oldu. O, Gürcüstana bir sıra yeni qarşıdurmalar gətirdi və bir dərs verdi. Burada çox təlatümlü siyasi prosesləri xatırlamaq olar. Aİ-nin vasitəçiliyi ilə müxalifət boykotdan əl çəkərək parlamentə daxil oldu, lakin müxalifətin ölkənin xarici siyasət seçimində bir növ referendum kimi qiymətləndirdiyi yerli seçkilərlə bağlı bu siyasi sükunət tezliklə pozuldu. Amma müxalifət məğlub oldu və bu, vəziyyəti daha da gərginləşdirdi.

11 min insanın həyatına son qoyan koronavirus pandemiyasının artması, pandemiya fonunda iqtisadiyyatın düşməsi nəticəsində gəlirlərini itirmiş bir çox vətəndaşın sosial-iqtisadi vəziyyətinin pisləşməsini də qeyd etməliyik.

Amma elə həmin il iqtisadi böhrandan çıxmağın ilk əlamətləri göründü. Xarici siyasət arenasında hakimiyyət və onların qərb tərəfdaşları arasında münasibətlərdə bəzi kobud hərəkətlərə baxmayaraq, Gürcüstan Aİ və NATO və onun əsas müttəfiqi ABŞ ilə münasibətləri qurmağa və gücləndirməyə davam etdi. Rusiya ilə münasibətlər, təəssüf ki, heç bir müsbət dəyişikliyə məruz qalmayıb. Ermənistan və Azərbaycanla əməkdaşlığı genişləndirmək üçün yeni imkanlar yaranıb.

**- Qafqaz regionunun hazırkı vəziyyətini necə qiymətləndirirsiniz? Onun gələcəyi üçün hansı perspektivlər var?**

- Qafqaz regionunun problemləri, beynəlxalq ictimaiyyət üçün prioritet olan digər problemlər fonunda, sanki, beynəlxalq dünya nizamının kənarında olduğu ortaya çıxdı. Uzun tarixi kökləri olan çox mürəkkəb ziddiyyətlər dolaşıqlığı var və bu dolaşıqlığı açmaq çətin olacaq.

Hesab edirəm ki, regionun iqtisadi inkişafında təkan və sıçrayış, onun qarşıdurma deyil, maraqların sinxronlaşdırılması meydanına çevrilməsi regionun dinc inkişafına yol açardı.

***Tərcümə - Elçin Bayramlı***

# "Sərgüzəşti-qlavpoçt"

**FELYETON**

***Ey mənim müsəlman qardaşlarım, inanın ki, bu zamanədə, bu şəhr içrə hərdən elə sərgüzəştlərlə adam qarşılaşır ki, dərhal "Danabaş kəndinin əhvalatları" yada düşür. Çün vaqe olan bu əhvalarların bir-birinə bənzəri həddən ziyadə çoxdur.***



Söhbət "Sərgüzəşti-vəziri-xani-Lənkəran"-dan getmir, bu dəfə məsələ başqadır və buna elə "sərgüzəşti-qlavpoçt" desək cümləmizə xoş gələcəyini güman edirəm. Əlbəttə ki, haqqında ərz edəcəyim bu poçtda müşahidə edildiyi üçün mən bu qənaətdəyən, ey əhli-müsəlmanlar.

Rəhmətlik Mirzə Cəlilin sözləri hələ də qullarlarda mis kimi cingildəyir: "Ey mənim müsəlman qardaşlarım! Əgər məndən gülməli nə isə eşitsəniz... düşünməyin ki, siz Molla Nəsrəddinə gülürsünüz. Ey mənim müsəlman qardaşlarım! Kimə güldüyünüzü bilmək istəyirsinizsə, qarşınıza güzgü qoyun və əksinizə diqqətlə baxın". Bu sözlərlə Cəlil Məmmədquluzadə eybləri axtarmağı, çatışmazlıqları ayinədə görməyi övladi-vətən üçün tövsiyyə edir və elə bizim də məramımız məhz bundan ibarətdir. Ondan ibarətdir ki, poçt qutusu qarşısında saatlarla oturub gözləyən təkcə Novruzəli deyilmiş, hələ çox belə hallara şahid olacağıqmış və indi növbəmizin çatacağını uzun müddət gözləyərkən bizim Novruzəliyə gülməyimiz həm də Mirzə Cəlilin güzgü barədə dediklərini bir daha xatırladır.

Sözümün mabədi isə ondan ibarətdir ki, məmləkətimizdə əlahəzrət hökumətin yaratmış olduğu bu qədər imkanların, şəraitin müqabilində hələ də poçt qutusu önündə də yox, elə poçtun daxilində, özü də "Qlavpoçt" dediyimiz mərkəzi poçtun özündə oturub uzun zaman gözləyənlər var və onlar mənə Novruzəlini xatırlatdı. Halbuki, daha tez xidmət etmək, insanları tez yola salmaq üçün çoxlu sayda "qutu" ilə poçtumuz dövlət tərəfindən təmin edilib və indi kompyuter deyilən bu sürətli qutuların köməyi ilə elə etmək olar ki, biz özümüzü poçt qutusunun önündə gözləyən Novruzəlinin yerində görməyək, yetər ki, buna cani-könüldən çalışan olsun. Ən dəhşətlisi odur ki, söhbət hansısa ucqar kənddə bina edilən poçtdan da getmir. Əsla. Məsələ burasındadır ki, barəsində nəql etdiyim məmləkətin düz paytaxtında müşahidə edilir, özü də hansısa sıradan bir poçt şöbəsində də yox, mərkəzi poçtda, "qlavpoçt" dediyimiz poçtda.

Sən demə, günlərin bir günündə mən bəndeyi-fəqir özüm də poçt məsələsində giriftar olacağammış. Xülasə, ərz edim ki, iştən izn alıb barəsində nəql etdiyim poçta yollandım ki, komunal ödənişimi edim və həmən tez geri, işimin başına dönüm. Fəqət mərkəzi poçta daxil olar-olmaz tez növbə götürüb zamanımı, növbəmin çatacağını gözləməli oldum. Amma necə deyərlər, sən saydığını say. Əlqərəz, bir də baxdım ki, xeyli vaxtdır gözləməkdəyəm, amma bu gedişlə mənə növbə çatacağı dəryada balıq sevdasına bənzər və axşama qədər burda qalmalı olacağam. Məsələ burasındadır ki, gözləyən tək mən deyildim və içəridəki adamlar cəmi ikicə nəfər poçt əməkdaşının, necə deyərlər ümidinə qalmışdılar. Bir tərəfdən də növbəyə düzülənlərin sayının artmasına baxmayaraq, bu iki nəfərin sayı heç artmırdı ki, artmırdı. Vəziyyətin, halın nə yerdə olduğunu zamanı gələndə sübut etmək imkanı üçün əşyayi-dəlilə ehtiyac duyulurdu və bu məqamda mənzərənin foto şəklini telefonumla çəkmək qərarına gəldim. Elə bir-iki şəkil çəkmişdim ki, bir də gördüm mühafizəçi gəlib başımın üstünü kəsdirdi ki, bəs çəkdiklərini sil. Əhli-qələm, KİV nümayəndəsi olduğumu təsdiq edən sənədi təqdim etdikdən sonra mühafizəçi məni rəhbərlik kimi təqdim etdiyi bir nəfərin hüzuruna apardı və eyni ilə "bombarabatay" deyən girdəvoy kimi məsələni nəql etməklə özünü qəhrəman olaraq göstərdi. Pəjmürdəliyimin səbəbini ərz etdikdən sonra bu "rəhbərlik" kimi təqdim olunanın cavabı bu oldu ki, iki nəfər elə bu qədər adama yetərmiş, hələ artıq da imiş. Nə qədər gözlədiyimi növbə çekinin köməyi ilə subutalnı-dokumentalnı göstərdikdən sonra belə məlum oldu ki, bu adi hal imiş.

And olsun ki, ay haray deyib, haray-həşir, qara-qışqırıq, vay-şüvən qoparmadım. Zalda gözləyənlərdən fərqli olaraq, Novruzəliyə yox, mən daha çox Məmmədhəsən əmiyə bənzəyə bilərdim, özüm də heç bir iddiada deyildim, öz eşşəyimi, əstəğfirullah, haqqımı tələb edirdim ki, çox gözləməyim. Söhbət nədənsə getmir ha, söhbət vnimatelni olmaqdan gedir. İndi mənim yazmağımdan inciyənlər gərək vaxtında biləydilər ki, qayda belədir, səm mənə vnimatelni olarsan, mən də sənə.

Xülaseyi-kəlam, bu dünyada hali-həyatımızda hələ tez-tez bu halla qarşılaşmalı olacağıqmış. Elə biz özümüz də, dost-aşnalarımız da nə vəqt isə eynən Novruzəli kimi gözləməli olduğumuzu anladığımdan canıma vəlvələ düşdü. İntəhası, buna bir əlac qılınacağına, əncam çəkiləcəyinə ümidimiz də var. Necə deyərlər, ümidsiz şeytan olsun!.

***İnam Hacıyev***

# "Son görüş göstərdi ki, dünyanın böyük gücləri qalib Azərbaycanın yaratdığı reallıqları artıq qəbul edib"

Avropa İttifaqının sədri qismində Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında videokonfrans formatında keçirilən görüş regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunması baxımından çox əhəmiyyətlidir. Görüş Brüsseldə təsbit olunmuş uğurlu sülh gündəliyinin davam etməsi deməkdir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Azərbaycan Prezidenti İlham Əliyevin Brüsseldə olduğu kimi, bu görüşdə də dövlətimizin və xalqımızın milli maraqlarını qətiyyətlə qoruduğunu vurğulayan deputat bildirib: "Görüş barədə verilən rəsmi məlumat da bunu təsdiqləyir. Bu görüşdə humanitar məsələlər, ərazilərin minalardan təmizlənməsi, etimad quruculuğu, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat kommunikasiya xətlərinin açılması, Azərbaycanla Ermənistan arasında sülh sazişinin hazırlanması diqqət mərkəzində olub. Dövlətimizin başçısı bu məsələlərlə bağlı mövqeyini qəti şəkildə bildirib və Birinci Qarabağ müharibəsi zamanı əsir və girov götürülmüş, itkin düşmüş 4 min nəfərə yaxın vətəndaşımızla bağlı məsələni xüsusi vurğulayıb".

Deputat bildirib ki, bütün bunlar ATƏT-in Minsk qrupunun gündəmdən çıxdığını göstərir. Nəzərə alaq ki, görüşlə bağlı verilmiş bəyanatda Minsk qrupunun və "Dağlıq Qarabağ"ın adı çəkilmir. Bu, o deməkdir ki, şərtləri artıq qalib Azərbaycan dövləti diktə edir və dünyanın böyük gücləri də ölkəmizin yaratdığı reallıqları qəbul edib.

# Əsirlikdən qayıdan və qayıda bilməyənlər...

*Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən videoformat görüşündə maraqlı hadisə yaşanıb. Ermənistan rəhbərinin həmişə olduğu kimi, diqqəti əsas məsələlərdən yayındırmaq üçün "hərbi əsir" məsələsini müzakirəyə çıxarmaq istəyi Azərbaycan Prezidentinin tutarlı arqumentləri və azərbaycanlı əsirlər və itkin düşmüş şəxslər haqqından danılmaz faktları ortaya qoyması ilə fiaskoya uğrayıb.*



Müzakirələr zamanı Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması məsələsinə xüsusi olaraq diqqət verib...

Azərbaycan torpaqlarında yaradılmış qondarma Ermənistanın bizə qarşı ötən əsrin sonlarında başlatdığı qanlı müharibə tarix boyu soydaşlarımıza qarşı törədilmiş ən amansız, dəhşətli hadisə kimi yaddaşlarda qalıb. Tarix dəyişsə də, dövran dönsə də bu acı heç vaxt unudulmayacaq. Ən azından izsiz-soraqsız itənlərin yaxınları onları hər yerdə axtaracaq, lakin heç vaxt tapa bilməyəcək. Çünki Ermənistanın başlatdığı və yeni ərazilər ələ keçirmək üçün tərtib etdiyi planın ən başında bir bənd yazılmışdı: azərbaycanlılarsız Qarabağ.





Bəli, ermənilər Qarabağda ələ keçirdikləri hər kənddə, hər şəhərdə heç bir azərbaycanlını sağ qoymurdular, öldürdükləri insanları izini itirmək üçün meyiti ya yandırır, ya da qeydiyyat aparmadan kütləvi məzarlıqda basdırırdılar. Düşünürdülər ki, bu əməlləri cəzasız qalacaq, kimsə törədilən cinayət əməllərinə görə onlardan hesab soruşmayacaq. Amma zaman, dövran dəyişdi, 100 il saxta, qondarma "soyqırımı" iddiası ilə bütün dünyada Türkiyəyə qarşı başlatdıqları təzminat kampaniyası getdikcə öz gücünü itirir, öləziyir, əvəzində ermənilərin tərtib etdiklərinin yalan olduğu üzə çıxır. Bəs erməni təbliğat maşını bu qədər "işlək" olduğu, dünyanın bir sıra ölkələrində əsassız erməni iddialarına dəstək verildiyi halda niyə düymə basılmır, niyə Türkiyəyə qarşı təzminat iddiası nəticə vermir? Bunun bir və yalnız bir səbəbi "soyqırımı"nın yalan olmasıdırsa, digər bir səbəb ermənilərin soyqırımına məruz qalan yox, soyqırımı törədən tərəf olmasıdır. 100 il bundan əvvəl baş vermiş hadisələrin soyqırımı olub-olmamasını sübut edəcək bircə dəlil belə yoxdur. Hadisə yalnız ermənilərin tərtib etdiyi yalanlar üzərində qurulub. Kütləvi məzarlıq yox, sənəd yox. Amma bunun əvəzində ermənilərin Bakıda, Qubada, Şamaxıda, Naxçıvanda, Nuxada və Azərbaycanın digər bölgələrində, eyni zamanda indiki Ermənistan ərazilərində azərbaycanlılara qarşı törədilmiş soyqırımının sübutu olan kütləvi məzarlıqlar var. Ötən əsrin sonlarında Xocalı şəhərində azərbaycanlılara qarşı törədilmiş soyqırımını sübut edən minlərlə subutlar, o cümlədən video görüntülər var...

### I Qarabağ itkinlərini kim qaytaracaq?

Qısa bir haşiyə çıxaq, Ermənistan II dünya müharibəsi zamanı Hitler Almaniyası tərəfindən soyqırımına məruz qalmış yəhudilərin təzminat haqqını tələb edən İsrailin izi ilə gedərək bolluca para qazanmaq iddiasındadır. Yəhudilərə Almaniya dövləti tərəfindən ödənilmiş 60 milyard avro ermənilərin gözlərini qamaşdırıb. Dünya erməniləri düşünür ki, əgər soyqırımı iddiası ilə çıxış edən yəhudilər kos-koca Almaniyadan bu qədər pul qopara bilirlərsə, bu, Türkiyə ilə niyə təkrarlanmasın? Amma ermənilər düşünmək istəmir ki, ortada əlahəzrət fakt olmasa kimsə onlara təzminat ödəməz.

...Birinci Qarabağ münaqişəsi başlayanda bu qarşıdurmanın tərəfləri kimi Azərbaycan və Ermənistanın adı çəkilirdi. Hər kəs bunu belə bilirdi. Bir müddətdən sonra isə məlum oldu ki, Ermənistan rəhbərləri beynəlxalq təşkilatlarla apardıqları danışıqlarda Azərbaycanın "Dağlıq Qarabağ"la münaqişə etdiyini qeyd edir və özlərini sudan quru çıxarmağa çalışırdılar. Yəni, "baxın, münaqişə tərəfi biz deyilik, Qarabağ erməniləridir və onların da müstəqil olmaq hüquqları tanınmalıdır". Halbuki, Xankəndində eiraz aksiyaları keçirənlər də, azərbaycanlıların evlərinə, maşınlarına hücum edənlər də, bizə güllə atan da, topa, "Qrad" yağışına tutan da Ermənistan və ermənilər idi. Ermənistan Dağlıq Qarabağda separatçı, oyuncaq qurum yaratmışdı və həmin "kuklalar" vasitəsilə özlərini günahlardan kənarda saxlamağa çalışırdılar. İşğal etdikləri kənd və qəsəbələri yağmalayıb, əllərinə nə keçirdisə Ermənistana daşıyırdılar. Əsirləri də Qarabağda yox Ermənistanda saxlayırdılar. Beynəlxalq təşkilatlar isə monitorinqi yalnız Qarabağ və işğal olunmuş ərazilərdə aparırdılar, Ermənistanda kimsəni axtarmaq onların yadına da düşmürdü. Ya da bunu bilərəkdən edirdilər.

Ardı Səh.12

# Əsirlikdən qayıdan və qayıda bilməyənlər...







Əvvəli-Səh-11

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupu tərəfindən aparılmış araşdırma zamanı məlum olub ki, itkin düşmüş və girov götürülmüş şəxslərin sayı 4354 nəfər təşkil edir. Onlardan 3503 nəfəri hərbçi, 841 nəfəri mülki şəxslərdir (9 nəfərin hərbçi və ya mülki olduğu məlum deyil). Mülki şəxslərdən 47 nəfəri uşaq (16 nəfər azyaşlı qız), 268 nəfəri qadın, 371 nəfəri yaşlılardır. Əsir, itkin düşmüş 4354 nəfərdən 783 nəfərin əsir və girov götürülməsi barədə məlumatlar daxil olub. Dövlət Komissiyasına daxil olmuş materialların təhlili zamanı 550 nəfərin əsir və girovluqda qətlə yetirildiyi və ya müxtəlif səbəblrdən vəfat etdiyi müəyyən edilib. Onlardan 104-ü qadın, 446-ı kişidir. 137 nəfərin yalnız adı məlumdur, 74 nəfər isə naməlum şəxslərdir.

İşçi Qrupundan verilən açıqlamaya görə, 2008-ci ilin sonunda 170-ə qədər insanın da taleyinə aydınlıq gətirilib və onların sağ olduğu aydınlaşıb. Onlar Şuşa, Şuşanın ətraf kəndləri, Kəlbəcər, Laçın işğal olunan zaman ermənilərin əlinə keçmiş insanlardır. Son 4 ildə 800-ə qədər insanın taleyi müəyyən olunub. İndiyədək həmin insanlar itkin hesab olunurdular. Onlardan bir qismi dünyasını dəyişib. Onların dəfn edildiyi yerlər müəyyən olunub. Ermənistan tərəfi isə həmişə olduğu kimi əsir və itkinlərlə bağlı əməkdaşlığa maraq göstərmir. Dəfələrlə erməni tərəfi ilə görüş olsa da nəticəsi olmayıb. BMT-nin insan haqları üzrə şurasının 7-ci sessiyasında silahlı münaqişələr zamanı itkin düşmüş azərbaycanlıların problemi ilə bağlı ölkəmizin nümayəndə heyətinin irəli sürdüyü qətnamə layihəsi 38 ölkənin yekdil rəyi ilə qəbul edilib. Avropa İttifaqı (Aİ) da Qarabağla bağlı memorandumda Azərbaycan və Ermənistanı itkin düşənləri tapmaq, ümumi informasiya bazası yaratmaq və qalıqları tapıb identifikasiya etmək üçün əməkdaşlığa səsləyib. Aİ Azərbaycan tərəfdən itkin düşənlərin sayının 4000 nəfərə yaxın olduğunu təsdiq edib. Halbuki, Ermənistan tərəfi beynəlxalq təşkilatlar qarşısında verdiyi hesabatlarda azərbaycanlı girovlar və itkin düşmüş şəxslər barəsində bir kəlmə də danışmaq istəmirdilər. Əslində həmin təşkilatlar da buna bir o qədər də maraq göstərmirdilər. II Qarabağ müharibəsindən sonra isə...

### Ermənistanın əsirlər üzərindən oynadığı iyrənc oyunun iflası

İkinci Qarabağ müharibəsi zamanı da Ermənistanın oyunları bitmədi. Öz ərazisindən Azərbaycanın şəhər və kəndləri, dinc sakinlər uzaqmənzilli ballistik raketlərlə atəşə tutuldu, Azərbaycanın adekvat cavabı isə rəsmi İrəvanın təlaşına, KTMT adlı Rusiya nato-suna şikayət məktubları ünvanlamasına səbəb olurdu. Yaxşı ki, bu hərbi qurumdakı dövlətlər rəsmi İrəvanın kələyindən xəbərdar idilər və ermənilərin oyununa şərik olmadılar. Ermənistan nə qədər KTMT-nin 4-cü maddəsini xatırlatmağa çalışsa da üzv dövlətlər döyüşlərin Azərbaycanın sərhədləri daxilində getdiyini əsas gətirərək ermənilərin axmaq iddiasına qulaq asmadılar. Nəticədə Ermənistan çoxtərəfli xarici dəstəyə, milyardlarla ölçülən hərbi yardımlara baxmayaraq döyüş meydanında Azərbaycana uduzdu, ağır şərtlər altında kapitulyasiya aktına imza atmalı oldu. 30 illik işğala son qoyuldu. Bütün bunlara baxmayaraq Ermənistan, xüsusən də müharibənin tör-töküntüləri, revanşistlər hələ də qələbə barədə danışırlar. Heç olmasa "məğlubedilməz Ermənistan ordusu"na aid və döyüş meydanında Azərbaycan Ordusu tərəfindən darmadağın edilmiş hərbi texnikanın Bakıda - "Qənimətlər Parkı"da nümayiş etdirilməsindən utansınlar, bir daha müharibədən danışmasınlar. Görünür, erməni separatizminin xəstə başı kəsilməyənə kimi bu söz-söhbətlər də kəsilməyəcək.

Gələk, Ermənistanın tez-tez hallandırdığı "hərbi əsir" məsələsinə. Əsir kimə deyilir, hərbi əsir kimdir? Əsir - döyüş əməliyyatlarında iştirak edən hərbçinin və qeyri-hərbçinin sonrakı əməliyyatlarda iştirakına yol verməmək məqsədilə azadlığı məhdudlaşdırılan şəxsə deyilir. Döyüş əməliyyatlarında ələ keçirilən mülki vətəndaşlar "əsir", Silahlı Qüvvələrdə xidmət edənlər isə "hərbi əsir" adlandırılır. Beynəlxalq konvensiyalarda "əsir" və ya "hərbi əsir" anlayışları üçün tələblər müəyyən edilib. Cenevrə Konvensiyasının 4-cü maddəsinə görə, rəqib hakimiyyətinə əsir düşmüş münaqişədə iştirak edən Silahlı Qüvvələrin şəxsi heyəti, bu qüvvələrə daxil olan könüllü dəstələr hərbi əsirdir. Həmçinin qarşıdurmada iştirak edən tərəflərdən birinə aid olan və rəhbər şəxs, uzaq məsafədən aşkar görünən müəyyən fərqlənmə nişanları daşıyan, aşkar silahlı olan, müharibənin qanun və adətlərinə riayət edən "hərbi əsir" hesab olunur.

Qarabağda silahlı ermənilərin əsir götürülməsi dekabrın 15-də, yeni müharibənin başa çatmasından və sülh bəyanatının imzalanmasından bir ay sonra baş verib. Ermənilərin bu terrorçuları "hərbi əsirlər" adlandırması absurddur. Bəli, məhz terrorçular. Azərbaycan XİN-in bəyanatında da qeyd edildiyi kimi, Ermənistanın Şirak vilayətindən Qarabağa göndərilmiş silahlı ermənilər müharibə bitəndən sonra torpaqlarımıza təxribat törətmək üçün göndəriliblər. Azərbaycanın BMT-dəki nümayəndəsi təşkilatın baş katibinə məktub göndərərək bildirib ki, əsirlikdə qalan 62 erməni hərbi qulluqçu təxribatçı sayılır və onların barəsində cinayət işi qaldırılıb. Bakıda hesab edirlər ki, hərbi əsirlər haqqında Cenevrə Konvensiyası dinc vaxtda Azərbaycana silahla keçənlərə şamil edilmir. 11 yanvar üçtərəfli görüşdə də Paşinyanın terrorçularla bağlı məsələ qaldırdı, amma rədd cavabı aldı. Əslində Ermənistan rəhbərliyi bu məsələni bilərəkdən gündəliyin önünə gətirib çıxarır ki, həm özünün revanşist ruhunu gücləndirsin, digər tərəfdən də məğlubiyyət fonunda özü üçün bir qədər əlverişli görünə biləcək motiv və məqam yaratsın. Bu məsələdə son sözü təbii ki, Azərbaycan deyir və deməlidir.

Maraqlıdır, Ermənistan "hərbi əsir" adlandırdığı terrorçuların azad edilməsi üçün hər gün Azərbaycana yalvarır, bəs 4 minə yaxın izsiz-soraqsız itkin düşən soydaşlarımızın sonrakı taleyindən bizə kim məlumat verəcək? Əlbəttə Ermənistan. Amma rəsmi İrəvanın bu məsələyə xoşluqla əncam çəkəcəyi inandırıcı görünmür. Çünki, bu, Ermənistanın sonu olar. İrəvanda bunu bilməmiş deyillər. Ona görə də, Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqının rəhbərləri ilə keçirdiyi görüşdə əsirlər məsələsini yenidən gündəmə gətirməsi Ermənistanın planlarını altüst edib. Yeganə çıxış yolu isə əməkdaşlığa müsbət yanaşmadır...

***V.VƏLİYEV***

## "Pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi hər zaman diqqət mərkəzindədir"



***"Vətəndaş rifahının təmin olunması, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzində olub. Əhalinin sosial rifahının gücləndirilməsi istiqamətində 2021-ci ildə cəmiyyətin bütün təbəqələrini əhatə edən çoxsaylı sosial qanunlar qəbul olunub, fərman və sərəncamlar imzalanıb, mühüm tədbirlər həyata keçirilib". SİA xəbər verir ki, bunu Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.***

S.Vəliyeva bildirib ki, Prezident İlham Əliyev tərəfindən 2022-ci il 8 fevral tarixində "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalanıb: "İmzalanmış Sərəncama əsasən, sığorta prinsipi ilə pensiya alanlara 2022-ci il üzrə 200 manat məbləğində maddi yardımın verilməsi nəzərdə tutulur. Həmin vəsait rüblər üzrə bölünməklə pensiyaçılara ödəniləcək və ilkin ödəniş fevral ayının pensiyaları ilə birgə veriləcək. Yeni sərəncam qulluq stajına görə əlavələrlə pensiya təyin edilmiş şəxslərdə də əhatə etməklə ümumilikdə 1,1 milyon (92%) pensiyaçıya şamil olunacaq və bu məqsədlər üçün il ərzində əlavə 352 milyon manat vəsait xərclənəcək. İmzalanmış "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncam Azərbaycanda həyata keçirilən sosial siyasətin davamı, dövlətin pensiyaçılara növbəti qayğısı olmaqla yanaşı, əmək pensiyaçılarının sosial rifahının mənfi təsirlərdən qorunmasına hesablanıb".

"Azərbaycanda postmüharibə və postpandemiya dövründə imzalanmış çoxsaylı sosial qanunlar, fərman və sərəncamlar bir daha Prezident İlham Əliyev tərəfindən həyata keçirilən düşünülmüş, müdrik, sosial-iqtisadi siyasətin göstəricisidir", - deyən Sədaqət Vəliyeva əlavə edib ki, həyata keçirilən sosial siyasət, vətəndaşlar tərəfindən böyük rəğbətlə qarşılanır, Prezident İlham Əliyev Azərbaycan xalqının daha da xoşbəxt, firavan yaşaması, əhalinin sosial rifahını gücləndirilməsi üçün gecə-gündüz yorulmadan, var gücü ilə çalışır. yap.org.az

# Azərbaycan 50 il sonra yenidən Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək

***Məlum olduğu kimi, ABŞ-ın paytaxtı Vaşinqtonda Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasındakı seçkilər zamanı Bakı şəhəri Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququnu qazanıb. Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanmasını çox böyük hadisə, bizim böyük qələbəmiz kimi dəyərləndirmişdi.***




## *Dövlət başçısı 74-cü Beynəlxalq Astronavtika Konqresinin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb*

Azərbaycan Prezidenti vurğulayıb ki, Konqres yeni, müasir texnologiyalar sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirdir: "Növbəti Konqresin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi, əlbəttə ki, ölkəmizin siyasi nüfuzunun təzahürüdür, Azərbaycana olan inamın nəticəsidir... Azərbaycanda son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində əldə edilmiş uğurlar, doğrudan da çox təsirlidir. Gənc müstəqil ölkə üçün qısa müddət ərzində belə nailiyyətlərin əldə edilməsi böyük hadisədir".

Dünya miqyasında ən mötəbər tədbirlərdən biri olan bu Beynəlxalq Konqresin ikinci dəfə Azərbaycanda keçirilməsi ölkəmizdə kosmik sənayenin inkişafına, beynəlxalq kosmik icma və onu təmsil edən Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsinə, habelə qlobal kosmos sənayesinə daha yaxından inteqrasiya istiqamətində əvəzolunmaz imkanlar yaradacaqdır. 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü il oktyabrın 2-6-da Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Dünya miqyasında ən mötəbər tədbirlərdən biri olan bu Beynəlxalq Konqresin ikinci dəfə Azərbaycanda keçirilməsi ölkəmizdə kosmik sənayenin inkişafına, beynəlxalq kosmik icma və onu təmsil edən Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsinə, habelə qlobal kosmos sənayesinə daha yaxından inteqrasiya istiqamətində əvəzolunmaz imkanlar yaradacaqdır. Əlbəttə ki, Azərbaycanda müasir texnologiyaların geniş tətbiqi, rəqəmsal inkişaf və kosmik sənaye quruculuğu sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. Ötən illərdə hərtərəfli dövlət dəstəyi ilə ölkədə kosmik sənaye üzrə müasir infrastruktur yaradılmış, informasiya təhlükəsizliyinin vacib komponenti olan telekommunikasiya peykləri orbitə buraxılmış, xarici dövlətlərin peyklərindən asılılıq aradan qaldırılmış və peyk xidmətlərinin ixracına başlanılmışdır. Mövcud peyk şəbəkəsi ölkəmizin suverenliyinin qorunması ilə yanaşı, onun sosial-iqtisadi inkişafına da mühüm dəstək verir. Uğurlu peyk layihələri sayəsində Azərbaycan dünya kosmik ailəsinin bir üzvünə çevrilərək beynəlxalq kosmik icmada böyük nüfuz qazanmışdır. Kosmik sənaye və peyk xidmətləri sahəsində əldə edilmiş təcrübənin, formalaşmış yeni insan kapitalı və etibarlı tərəfdaş imicinin təzahürü olaraq, Azərbaycan 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanmışdır. İlk dəfə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə ? 1973-cü ildə Bakıda keçirilən Beynəlxalq Astronavtika Konqresinə 50 il sonra Azərbaycanın yenidən ev sahibliyi etməsi böyük rəmzi məna daşıyır. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq, ölkənin davamlı iqtisadi inkişafı təmin edilib, yerlərdə sosial-mədəni infrastruktur obyektləri yenidən qurulub, yeni istehsal, habelə, xidmət müəssisələri istifadəyə verilib. Azərbaycan beynəlxalq miqyaslı mötəbər yarışlara, qlobal forumlara, konfranslara, bir sözlə, nüfuzlu tədbirlərə ev sahibliyi edir. Eyni zamanda, bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir. Ölkəmizdəki uğurlu inkişaf, sabitlik, əmin-amanlıq beynəlxalq tədbirlərin keçirilməsində əlverişli məkandır. Uğurla inkişaf edən Azərbaycanda müasir dövrün çağırışlarına uyğun istiqamətində ardıcıl tədbirlər həyata keçirilir və bu, davamlı xarekter daşıyır.




Konqresin Azərbaycanda keçirilməsinin qələbəmiz olduğunu vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bizim çox güclü rəqiblərimiz var idi: "Dörd şəhər Konqresin keçirilməsi üçün səy göstərirdi. Bakı ilə yanaşı, Sinqapur, Rio-de-Janeyro və Dehli şəhərləri. Yəni, həm təcrübə, həm də əhali baxımından Hindistanla Braziliya Azərbaycanla müqayisəedilməz səviyyədədir. Ancaq bu mübarizədə qələbə əldə etməyimiz əlbəttə ki, bizim nüfuzumuzdan xəbər verir. Beynəlxalq astronavtika aləmi bu dörd şəhərdən, məhz Bakını seçib. Bizə inanırlar, bizim siyasətimizə böyük dəstək göstərilir, Azərbaycanda gedən proseslərə dünya miqyasında böyük rəğbət var". Dövlət başçısı Astronavtika Konqresinin Bakıda keçirilməsinin önəmli siyasi qələbə olduğunu bildirib. Altmış səkkiz ölkədən 398 üzvü birləşdirən Beynəlxalq Astronavtika Federasiyası dünyada texniki sahədə mövcud olan ən böyük qurumlardan biridir. Hələ Sovet İttifaqında ilk və yeganə Konqres Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Bakı şəhərində keçirilmişdir. Bu tədbirdən təxminən 6 ay sonra Azərbaycanın kosmik sənayesinin əsasları qoyulmuşdur. "Kaspi" Tədqiqat Mərkəzi yaradılmaqla, Azərbaycan mütəxəssisləri kosmik sahədə tədqiqatlara, kosmik cihazlar hazırlamağa başlamış, sonradan o cihazlardan "Salyut" və "Soyuz" kimi peyklərdə istifadə olunmuşdur.

Bu gün Azərbaycan süni peyk layihələri ilə kosmik klubun aktiv üzvüdür. Cənubi Qafqazda ilk və yeganə peyk operatoru olan "Azərkosmos" telekommunikasiya və coğrafi kəşfiyyat sahələri üçün yüksək keyfiyyətli peyk xidmətləri təqdim edir. Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarının inkişafı sahəsində uğurların əldə olunması ölkəmizin azsaylı dövlətlərin təmsil olunduğu kosmik kluba üzv olmasına səbəb olub. Azərbaycanda bir çox sahələrdə olduğu kimi, kosmik sənayenin əsasları Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. 2010-cu ildə Prezident İlham Əliyev tərəfindən "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında Sərəncam imzalandı. Həmin quruma telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılması, əsas və ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı xüsusi tapşırıq verildi.Bu gün Azərbaycan dünyada kosmik sənaye ölkəsi olaraq öz töhfəsini verir və kosmik sənaye ölkəsi olaraq dünya dövlətlərinin diqqətindədir.Təbii ki, hər zaman olduğu kimi Azərbaycan bu dəfə də öz təcrübəsindən, təşkilatçılıq bacarığından yararlanaraq Beynəlxalq Astronavtika Konqresini ən yüksək səviyyədə təşkil edəcəkdir.1950-ci ildən bəri fərqli ölkələrdə keçirilən Beynəlxalq Astronavtika Konqresi təşkilatın əsas tədbiridir. Bu Konqres dünyanın kosmik sahədə aparıcı agentlikləri, elm mərkəzləri və beynəlxalq təşkilatların rəhbərləri, eləcə də məşhur alimlər, özəl sektordan olan yüksək səviyyəli peşəkarlar, gənc tədqiqatçılar və tələbələr də daxil olmaqla dünya kosmos ictimaiyyətinin 6 mindən çox nümayəndəsini bir araya gətirən qlobal platformadır.

***Zümrüd BAYRAMOVA***

# Gizli düşmənlə mübarizəni unutmamalıyıq




***Çinin Uhan şəhərində yayılmağa başlayan koronavirus səbəbindən dünya hələ də təşviş içərisindədir. Bu xəstəlik bütün dünya ölkələrinə müxtəlif aspektlərdə öz təsirini göstərib və bu qlobal bəla heç bir ölkədən yan keçməyib. Təbii ki, 2019-cu ilin dekabr ayından etibarən yayılmağa başlayan virus ölkələrin iqtisadiyyatından tutmuş səhiyyəsinə qədər mənfi təsirləri ilə yadda qalıb və qlobal miqyasda iqtisadi geriləmələrlə yanaşı insan tələfatına da gətirib çıxardığı günümüzün reallığıdır. Elə bu səbəblərə görə, bütün dünya ölkələri bu problemlə birgə mübarizə aparır və xəstəliyin təsirlərini minimum endirmək üçün səylərini səfərbər edirlər.***





Təhlil

Qeyd olunduğu kimi, koronavirus adlandırılan xəstəliyin fəsadları, mənfi təsirləri müxtəlif istiqamətlərdə özünü biruzə verib və hələ də verməkdədir. Məsələ burasındadır ki, bu xəstəlik ən başlıcası insanlar üçün həyati təhlükə hesab olunur və məhz bu xəstəlik səbəbindən bu vaxta qərər müşahidə olunan, qeydə alınan insan tələfatı da ən problemli məsələ olaraq bütün dünyanı narahat edir. Ən böyük narahatçılıq isə ondan ibarətdir ki, sözügedən xəstəliklə mübarizə hələ də bitməyiv və koronavirus hələ də insanların həyatına son qoymaqda davam edir. Doğrudur, artıq bütün dünyanın bununla bağlı keçən müddət ərzində müəyyən təcrübəsi var, lakin bu xəstəliyin, koronavirusun bir-birinin ardınca peyda olan ştamları xəstəliyi törədən virusun mutasiyaya uğradığını təsdiqləyir və mübarizəni getdikcə daha da çətinləşdirir.

Əfsuslar olsun ki, bu xəstəlik Azərbaycandan da yan keçməyib və 2020-ci ilin əvvəlində ölkəmizin ərazisində COVİD-19-a yoluxma halları qeydə alınıb. Elə həmin andan etibarən bütün dünyada olduğu kimi, ölkəmizdə də bu xəstəliyə yoluxanların, xəstəlik səbəbindən vəfat edənlərin sayı bir müddət davamlı olaraq artdı və bu artım mümkün qədər minmuma endirildi. Ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə bu xəstəliyə, koronavirusa qarşı çox tez, çevik reaksiya verildi, tam vaxtında qabaqlayıcı tədbirlər həyata keçirildi, səhiyyə sistemi hazır vəziyyətə gətirildi, əczaçılıqla, dərman və digər tibbi ləvazımatların təminatı ilə bağlı mühüm məsələlər öz həllini tapdı, vətəndaşların sağlamlığının qorunması məqsədi ilə müvafiq tədbirlər görüldü. Bu tədbirlər də öz bəhrəsini verdi və qlobal bəlanın təsirləri ölkəmizdə məhz bu tədbirlər sayəsində minimuma endirildi.

Məsələ burasındadır ki, koronavirus bəlası dünyanın başı üstündən hələ də çəkilməyib və bu xəstəliyi törədən virus hələ də can almaqda davam edir. Eyni ilə bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da bu xəstəliyə yoluxma halları son vaxtlar artıb. Görünür, qış fəsli ilə əlaqədar havaların soyuq keçməsi, respirator xəstəliklərin baş qaldırması üçün münbit şəraitin olması yoluxma hallarının atması üçün əlverişli şərait yaradıb.

Hər bir halda, yoluxma ilə bağlı son statistik göstəricilər həyəcan siqnalı üçün ciddi əsas yaradır. Artıq yoluxma sayı altı mindən yuxarıdır və bu çox ciddi bir rəqəmdir, hansıki vətəndaşlar arasında məsuliyyət məsələsinə diqqətin artırılmasını zəruri edir. İnsanlar bu zamana qədərkindən də daha ciddi, daha həssas şəkildə xəstəlikdən qorunmalı olduqlarını dərk etməlidirlər. Əks halda bu, daha böyük yoluxmalara, fəsadlara səbəb ola bilər. Ölkənin səhiyyə sisteminin hazırlıqlı olmasına, təchizatın yetərli olmasına rağmən prosesin idarəolunmaz hala gəlmə ehtimalı hər zamankından daha böyükdür. Ən azından, yoluxma sayında olan kəskin artım bunu deməyə əsas verir.

Etiraf edək ki, görülən tədbirlər sayəsində son vaxtlara qədər yoluxma sayının əhəmiyyətli dərəcədə aşağı düşməsi insanlar arasında bir arxayınlığa səbəb oldu. Bəzən elə görünür ki, qlobal bəlaya çevrilən xəstəlik vətəndaşlar üçün sonuncu plana keçdi. Qeyd etdiyimiz arxayınlıq hissi səbəbindən bəzən insanların sıx toplaşmaları, sosial məsafəni qorumaması, qoruyucu vasitələrdən istifadə etməməsi, gigiyenaya riayət etməməsə də müşahidə edilir. Bu isə nəticə etibarı ilə yenə də yoluxmanın artmasına gətirib çıxaran amillərdəndir və son günlərin statistic göstəriciləri, rəqəmlər bunu deməyə əsas verir.

Göstıricilər həm də onu deməyə əsas verir ki, biz daha yüksək rəqəmlərin, gərgin vaxtların yenə də bir addımlığındayıq. Həyəcan siqnalının tam zamanıdır. Unutmaq lazım deyil ki, koronavirus bizdən xeyli canlar alıb, ölkəmizdə xeyli sayda itkilərə səbəb olub. Ölkə olaraq gərgin günlər yaşadığımızı da unutmamalıyıq. İnanırıq və əminik ki, heç kim yenidən karantin rejiminin, xəstəxanalarda yaşanan o gərgin günlərin bir daha geri dönməsini, təkrarlanmasını istəmir. Elə isə, nəyə görə məsuliyyətimizi unutmalı, bu böyüklüyündə qlobal bəlaya dırnaqarası baxmalıyıq? Əksinə, əvvəlkindən də daha artıq şəkildə məsuliyyətlə yanaşmalı, sosial məsuliyyətimizi hiss etməli, özümüzü, yaxınlarımızı, ümumiyyətlə cəmiyyətimizi qorumalıyıq. Çünki, bizim artıq bu xəstəliklə bağlı kifayət qədər təcrübəmiz var və bu xəstəlik səbəbindən bəlkə də hər ailənin itgisi olub bu zamana qədər. Ən azından çoxlarımız öz yaxınlarımızın bu xəstəlik səbəbindən dünyasını dəyişdiyinin şahidi olmuşuq.

Əgər hərhansı bir virus, yaxud xəstəlik bizim, yaxınlarımızın, vətəndaşlarımızın həyatını itirməsinə, vaxtsız vəfatına səbəb olursa, deməli, düşmən olaraq da qəbul edilməlidir. Yenə də statistik rəqəmlərə baxsaq görərik ki, bu düşmənin aldığı canların, aramızdan apardığı insanlarımızın, vətəndaşlarımızın sayı heç də müharibədə, cəbhədə olan itgilərdən az deyil. Əksinə, bu xəstəlik səbəbindən itgilərimiz savaş zamanı olan itgilərimizdən daha çoxdur. Nəzərdən qaçırmaq lazım deyil ki, savaş zamanı, müharibədə olan itgilərdə də vətəndaşlarımızı, bu xalqın övladlarını, yaxınlarımızı, əzizlərimizi itiririk, elə bu xəstəlik səbəbindən də. Xəstəlik adlı bu düşmənlə danışıqlar da mümkünsüzdür. Üstəlik, bu düşmən gözəgörünməzdir və onunla mübarizəyə daha diqqətlə yanaşmaq tələb olunur. Tələb olunan isə, təbii ki, böyük fədakarlıq da deyil, şəxsi gigiyenaya əməl etmək, özünü və ətrafındakıları qorumaq, bötüvlükdə qorunmaqdır. Bunun üçün də vasitələr, qaydalar artıq cəmiyyətimizə bəllidir. Hər kəsin özünü qoruması belə, ümumilikdə ətrafını mühafizə etmək deməkdir. Eyni zamanda başqalarının da məlum xəstəlik səbəbindən həyati təhlükə ilə qarşılaşmasına zəmin yaratmamaq tələb olunur. Hər birimizin tələb olunan qaydalara əməl etməyimiz yekunda cəmiyyətimizin qorunmasını təmin edir. Bunun üçün nələrə riayət edilməsi artıq heç kim üçün sirr də deyil.

Bir çox hallarda qoruyucu vasitələrdən şərti olaraq istifadə edildiyini də görürük. Bəziləri qoruyucu vasitələrin istifadəsini düzgün şəkildə də etmirlər və bununla qorunmaq ümumiyyətlə mümkün deyil. İnsanlar bunu inzibati qayda olaraq deyil, həqiqətən sağlamlığın qorunması üçün tətbiq olunduğunu məcburi deyil, düşünülmüş şəkildə dərk etməli, qəbul etməlidirlər. Məsələn, maska ilə ancaq ağız hissəsini örtənlər, yaxud çənə nahiyəsində saxlayanlar var və onlar bilməlidirlər ki, bu şəkildə qoruyucu vasitədən istifadə etməklə ondan imtina etməyin, ümumiyyətlə istifadə etməməyin arasında heç bir fərq yoxdur. İnsanlar bilməlidirlər ki, virus nəfəs yollarından orqanizmə daxil olur və qoruyucu maska bu yolları tamamilə qapatmalıdır. Qorunma vasitələrindən inzibati qayda olaraq əməl etmək, maskanı əldə saxlamaq, hər hansı müəssisəyə daxil olanda yalnız qapıdan keçmək məqsədilə taxmaq çox təhlükəlidir və bununla qorunmaq olmaz. Deməli, belə məsuliyyətsiz yanaşmalar insanların yoluxmasına, yoluxmanın kəskin şəkildə artmasına, nəticə etibarı ilə vəziyyətin acınacaqlı şəklə düşməsinə gətirib çıxara bilər. Ona görə də, qoruyucu vasitələrdən istifadə etdikdə, sosial məsafə saxladıqda bunu sosial məsuliyyətimizi nəzərə alaraq etməliyik. Etinasızlıqdan, yaxud da arxayınlıqdan çəkinməliyik. Yaddan çıxarmamalıyıq ki, gözəgörünməz düşmənlə mübarizə aparırıq və bu düşmən də bizim vətəndaşlarımızın həyatına son qoya bilir, itgilərimizə səbəb olur. Biz sözlə, gizli düşmənlə mübarizəni unutmamalıyıq.

***İnam Hacıyev***

# USAİD-in Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxması faktı çoxdan sübuta yetirilib!

## *Vaxtilə ölkəmizdən qovulan Soros fondunun qollarından biri sayılan bu qurumun kirli əməlləri bu gün də isbat olunmaqdadır*

***Səs Media Qrupunun siyasi araşdırma və analitik şöbəsi olaraq dəfələrlə USAİD-in anti-Azərbaycan xarakterli rəhbəri Samanta Pouer, eləcə də bu qurumun Qərb ölkələrində fəaliyyət östərən erməni lobbiçilərinin pərdəarxası planlarını icra edən əməlləri haqqında dəfələrlə, eləcə də 100%-lik sübutlarla yazmışıq. Həmçinin yazmışıq ki, bu bağların ortaq vasitəçisi və birincisi Corc Sorosdur.***






Uzun müddətdir ki, işıq üzü görmüş həmin yazı və məqalələrin, siyasi araşdırmaların linklərini bir daha dəyərli oxucularımızın diqqətinə çatdırırıq:

https://sia.az/az/news/politics/896995.html
https://sia.az/az/news/politics/899029.html
https://sia.az/az/news/politics/904082.html
https://sia.az/az/news/politics/890392.html
https://sia.az/az/news/politics/882442.html
https://sia.az/az/news/politics/879831.html
https://sia.az/az/news/politics/877915.html
https://sia.az/az/news/politics/875418.html
https://sia.az/az/news/politics/875160.html
https://sia.az/az/news/politics/874312.html
https://sia.az/az/news/politics/874152.html
https://sia.az/az/news/politics/872252.html
https://sia.az/az/news/politics/869592.html
https://sia.az/az/news/politics/866857.html
https://sia.az/az/news/politics/865884.html
https://sia.az/az/news/politics/865439.html
https://sia.az/az/news/politics/857552.html
https://sia.az/az/news/politics/857184.html
https://sia.az/az/news/politics/856893.html
https://sia.az/az/news/politics/856643.html
https://sia.az/az/news/politics/856153.html

Lakin maraqlısı da budur ki, USAİD-in ölkəmizdəki nümayəndəliyi hələ də öz fəaliyyətlərini davam edirlər. Üstəlik, bu azmış kimi, açıq şəkildə Azərbaycan dövlətinə, xalqına qarşı hörmətsizlik və saygısızlıq da nümayiş etdirir ki, bu da haqlı olaraq hiddət və qəzəb doğurur.



Onu da qeyd edək ki, bu qurumun əsas kökünün hazırda Ağ ev və qondarma erməni soyqırımının qəbul edildiyi bir zümrə ilə bağlı olduğu barədə də kifayət qədər yazılıb və məlumatlar verilib.

Fəqət, aylardır ki, yazılan hər bir mühüm, dövlət maraqlarımızın qorunmasına xidmət edən yazı və məqalələrə bəzən etinasız yanaşılmanın sonradan fəsadlar verə biləcəyi ehtimallarının da olduğunu hesab edərsək bir daha USAİD adlı ermənipərəst qurumun kirli, antitürkçülüyə, antiazərbaycançılığa doğru hesablanmış əməllərinin ifşa edilməsinin tam zamanı olduğu sübutunu ortaya qoya bilərik.



### İndi isə bəhs etdiyimiz mətləbin məğzi ilə davam edək:

Misal üçün xatırlada bilərik ki, ABŞ konqresi bir müddət əvvəl USAİD-ə məktub göndərib və həmin məktubda "artsaxda" (?!) yaşayan ermənilərin ehtiyaclarının qiymətləndirilməsinə dair görülən səylər haqqında" (??!!) məlumatın verilməsi tələb edilib. Və bu da son deyil. Konqresin sözügedən məktubuna cavab olaraq USAİD geniş məzmunlu cavab hazırlayıb və ən maraqlısı (!) Azərbaycanın ölkə rəhbərliyinin "Daqğlıq Qarabağ" adlı ərazinin olmaması, onun yerinə Qarabağ regionunun olması barədə verdiyi bəyanatlara rəğmən, "Dağlıq Qarabağ" adından istifadə edib, üstəlik "Dağlıq Qarabağı" faktiki olaraq "müstəqil dövlət" kimi tanıyaraq "Dağlıq Qarabağ" və Ermənistanın ümumi sərhədləri olduğuna işarə edib!




Bir daha həmin məktuba deyilənləri xatırladırıq: "USAİD davamlı olaraq Dağlıq Qarabağdan 90, 000 köçürülmüş (ingilis dilində "displaced" termini istifadə edilib-R.R.) şəxsin Ermənistana gəlməsi nəticəsində yaranmış kompleks humanitar böhrana səmərəli cavab tədbirləri görməkdən ötrü öz proqramlarının adaptasiyasını davam etdirir..."

### Məktubun tam mətnini isə aşağıda oxuya bilərsiniz:

Beləliklə, bu fakt tam bir rəzalət və rüsvayçılıq, həmçinin Azərbaycan Respublikasının suveren ərazisinə qarşı saygısızlıq və hörmətsilikdir!

Yəni USAİD Qarabağdan Ermənistana qaçanları "ölkə daxilində köçürülmüş" şəxslər kimi tanıyır və bu da birbaşa (!) beynəlxalq hüquq normalarına, eləcə də beynəlxalq hüquq tərəfindən tanınan Azərbaycanın suveren ərazilərinə qarşı tam bir müdaxilədir. Belə çıxır ki, həmin şəxslər beynəlxalq sərhədləri pozaraq digər ölkə ərazisinə keçdiklərinə görə, onlara "qaçqın" deyilməli və buna müvafiq də status verilməlidir (?!)

Sözügedən situasiyadan isə yalnız bu nəticəni hasil etmək olar: yuxarıda da vurğulandığı kimi, təkcə bu kimi sərsəm və qəbuledilməz bəyanatları ilə USAİD açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünü təhdid edir!

### USAİD 1998-2020-ci illər ərzində separatçı-quldur rejimə 48 milyon ABŞ dolları məbləğində yardım göstərib və bu hələ bilinən rəqəmlərdir

Sözügedən məktubda həmçinin qeyd olunub ki, 1998-2020-ci illər ərzində USAİD separatçı-quldur rejimə 48 milyon ABŞ dolları məbləğində yardım göstərib. Separatçı quldur rejimi məhz həmin maliyyə vəsaitləri hesabına işğal olunmuş ərazilərdə mürəkkəb müdafiə istehkamları qurub, silahlanıb.Vətən müharibəsində isə Azərbaycan Ordusu məhz həmin istehkamları fəth etməkdən ötrü nə qədər qəhrəmanlıqlar göstərdi, şəhidlər verdi. Bunun cavabını vermək zamanı isə artıq yetişib - USAİD-in ermənipərəst rəhbərliyinin tapşırıqları altında fəaliyyət göstərən emissarlar da ölkəmizdən öz sənəd-sübutləri ilə rədd edilməlidirlər. Fotoda gördüyünüz isə Samanta Pouerdir, İrəvanda qondarma erməni soyqırımı abidəsi qarşısında "kədərlə" dayanıb...

USAİD bəyan edir ki, o "Dağlıq Qarabağdan" köçürülmüş şəxslərə əlavə olaraq 2,5 milyon dollar yardım göstərəcəkdir. Yəni USAİD Azərbaycanda fəaliyyət göstərdiyi dövrlər ərzində bir milyon qaşqın və məcburi köçkünlərimiz haqqında dürüst qərar qəbul etməyib, sadəcə, kənd təsərrüfatı və s. kimi sahələrdə guya "əməli fəaliyyət" göstərməklə, gerçək ermənipərəst siyasi maraqlarını pərdələyib, özü də minnət qoymaqla. Bəs deyilmi?!

USAİD rəsmisi Samanta Pouer sosial şəbəkələrdə etiraf etmişdi ki, övladları kilsəyə gedərkən, onlara "genosid qurbanlarına" şam yandırmağı tapşırıb

Bu baxımdan da xatırladaq ki, USAİD hazırkı rəhbəri Samanta Pouer 2006-cı ildə çəkilən qondarma "erməni soyqırımı" haqqındakı "sənədli" filmdə türkləri "faşist" adlandıran. "qenosidin" tanınma gününü özünün ikinci ad günü elan edən bir radikal ermənipərəts ünsürdür. Məhz Samanta Pouer sosial şəbəkələrdə etiraf etmişdi ki, övladları kilsəyə gedərkən, onlara "genosid qurbanlarına" şam yandırmağı tapşırıb.

Beləliklə, haqlı olaraq sual yaranır: əziz xalqımız, bütün bunlardan sonra bu təşkilat axı bizim ölkədə nə gəzir? Bunun isə cavabının bir tərəfi vaxtilə USAİD-in bağlı olduğu Soros fondudur. Həmin Soros fondu ki, o da ermənipərəst davranışlarına, ölkəmizdə hərc-mərcliklər yaratmasına görə Azərbaycandan rədd edilmişdi. İndi isə növbə USAİD-indir və bu qurum ən qısa zamanda ərazilərimizi tərk etməli, sonradann isə əməllərinə görə hüquqi çərçivədə cavab verməlidir!

***Rövşən RƏSULOV***

**ANALİTİK+FAKT**

# "Tottenhem" Romeronu birdəfəlik aldı



*"Tottenhem" yayda "Atalanta"dan icarəyə götürülən Kristian Romeronun transfer hüquqlarını da alıb.*

Qol.az xəbər verir ki, bunu London klubunun baş məşqçisi Antonio Konte Britaniya mətbuatına açıqlamasında deyib.

İtaliyalı mütəxəssis 23 yaşlı müdafiəçinin icarə müqaviləsindəki satınalma bəndindən istifadə etdiklərini bildirib. Xatırladaq ki, "Tottenhem" argentinalı futbolçu üçün "Atalanta"ya 55 milyon avro ödəyib.

# Diabet xəstələri səhər yeməyində nə yeməlidir?

***"2-ci tip diabet xəstələri üçün səhər yeməyi həm günün ən vacib, həm də ən təhlükəli yeməyidir. Uzun müddətli aclıqdan sonra günün ilk yeməyi olan səhər yeməyində düzgün qidalanan diabet xəstəsi gün ərzində insulin səviyyəsini nəzarətdə saxlaya bilir. Ancaq günün ilk yeməyində düzgün qida qəbul etməyən diabet xəstələri gecə ərzində düşən insulin səviyyəsinin ani yüksəlməsi ilə özünü pis hiss edə bilər.***

Bu səbəblə səhər yeməyində yeyəcəyiniz qidalar son dərəcə əhəmiyyətlidir. Şəkərli taxıllar, qaymaqlı pendir, simit və delikates məhsullarlar yaxşı səslənsə də, diabet xəstələri səhər yeməyindən mümkün qədər bu məhsullardan uzaq durmalıdırlar. Tip 2 diabet kimi tanınan şəkərli diabet xəstələri ilk olaraq günlərinə həkimlərinin tövsiyə etdiyi dərmanlardan istifadə etməklə başlamalıdırlar". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Ceyhunə Yusifova deyib.

Onun sözlərinə görə, diabet xəstələri üçün ən yaxşı səhər yeməyi liflə zəngin qidalardan ibarət olanlardır: "Liflə zəngin məhsullar şəkər, karbohidrat və duz baxımından məhdudlaşdırılmalıdır. Meyvə şirələrini də pəhrizinizdən xaric etməlisiniz. Çünki meyvə şirələri qan şəkərini tez yüksəldən qidalardır".

Ceyhunə Yusifova sözlərinə belə davam edib: "Yumurta diabet xəstələri üçün ən ideal qidalardan biridir. Böyük bir qaynadılmış yumurta yalnız 78 kaloridir və 6,29 qram protein ehtiva edir.5,30 yağ ilə yumurtada şəkər demək olar ki, yoxdur. Kalsium və fosforla da zəngin olan yumurta şəkər xəstələri üçün ən ideal qidadır. Yumurta diabetin qarşısını almağa da kömək edə bilər.

Qerkules də şəkər xəstələri üçün səhər yeməyində məsləhətdir. Protein qəbulunu maksimum dərəcədə artırın. Çərəzlər,paxlalılar az yağlı süd məhsulları kimi heyvan mənşəli məhsullar əla protein mənbəyidir.

Daha çox lif istehlak edin. Lif qan şəkərini idarə etməyə, dolğunluq hisslərini dəstəkləməyə və həzm sağlamlığını yaxşılaşdırmağa kömək edə bilər. Fındıq,badam, buğda kəpəyi, yulaf kəpəyi, əksər tərəvəzlər və bir çox meyvə tərəvəzlər liflə zəngindir. Şəkər üçün diqqətli olun. Qidalar və içkilər şəkərli ola bilər. Su və şəkərsiz qəhvə və ya çay şəkərli içkilərdən daha sağlam seçimdir və bütün təzə meyvələr təzə şirədən daha yaxşıdır. Şəkər və süni dadlandırıcılar insulin müqavimətini və qlükoza səviyyəsini artıra bilər.

Nəticədə, şəkərli diabet xəstələri üçün səhər yeməyi vacibdir. Bu, insanda toxluq hissi yaradır və qan şəkərinin səviyyəsini sabit saxlamağa kömək edir. İnsulin həssaslığı adətən səhər axşama nisbətən daha yüksəkdir, buna görə səhər yeməyini ehtiva edən və gecə gec yeməyi minimuma endirən yemək cədvəlinə üstünlük verilir".

*Ayşən Vəli*



## Başsağlığı

**Seyfəddin Eyvazov akademik Arif Həşimova və professor Azər Xudiyevə əzizləri Fikrət Həşimovun vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin!**

# Xəbərdarlıq: Havanın temperaturu enəcək, yağış, qar yağacaq

***Sinoptiklər ölkə ərazisində hava şəraitinin dəyişəcəyi ilə əlaqədar xəbərdarlıq ediblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında fevralın 10-u səhərdən 11-dək şimal-qərb küləyinin əsəcəyi, sürətinin arabir 15-20 metr/saniyə olacağı, səhər və gündüz bəzi yerlərdə arabir saniyədə 23-28 metrədək güclənəcəyi gözlənilir.***



Fevralın 10-u axşam, fevralın 11-i gecə bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-7° enəcək.

Fevralın 10-u günün ikinci yarısı qərb rayonlarından başlayaraq fevralın 11-i axşamadək ölkə ərazisində hava şəraitinin arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimal edilir. Əsasən şimal və qərb rayonlarında yağıntının intensiv olacağı proqnozlaşdırılır. Qərb küləyinin əsəcəyi, sürətinin arabir 15-20 metr/saniyə olacağı, fevralın 10-da ayrı-ayrı yerlərdə arabir saniyədə 23-28 metrədək güclənəcəyi bildirilir. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-8° enəcək. Fevralın 11-də gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlama ehtimalı var.

# Arı zəhəri ilə müalicə proseduru



***Arı zəhəri iltihabgötürücü və ağrıkəsici təsirə malikdir. Zəhər xəstənin vəziyyətini yaxşılaşdırır, tonus və iş qabiliyyətini artırır, yuxusuzluq, iştaha və qan-damar sisteminə müsbət təsir göstərir.***

Həkim-fitoterapevt Elnur Eldaroğlu arı zəhərinin tətbiq sahələri barədə AZƏRTAC-a məlumat verərək deyib: "Arı zəhəri xroniki ağrı sindromları, bel, boyun, baş ağrıları və diz ağrılarında, revmatoid-artritlərdə geniş istifadə olunur. Həmçinin dünya təbabətində çətin və müalicəyə tabe olmayan xəstəliklər qrupuna aid olan dağınıq sklerozda da arı zəhəri ilə müalicədən istifadə edilir. Ən çox oynaq və sinir sistemi xəstəliklərində tətbiq olunur. Arı sancması ilə müalicədən sonra xəstədə sanki bir oyanış hiss olunur".

Lakin bəzən zəhərin əks təsiri də olur. Ona görə də əvvəlcə pasiyent müayinədən keçirilir, qan analizləri götürülür, nəticələrə uyğun müalicə tətbiq edilir.

Müalicə proseduru barədə bəhs edən həkim-fitoterapevt deyib: "İlk gün orqanizmin müəyyən bir hissəsindən, daha çox bel, böyrəküstü nahiyədən arı iynəsinin batırılması tətbiq edilir, günaşırı həmin müalicə proseduru mərhələli şəkildə artırıla-artırıla davam edir. Hətta bir müalicə kursundan 40-50, hətta 60-70-ə qədər arı sancmasından istifadə olunur. Bu, daha çox xəstəlikdən asılıdır. Payız, qış və yaz mövsümündə daha çox həmin müalicələr tətbiq olunur".

Həkimlər hamilə qadınlara, böyrək çatışmazlığı, qara ciyər xəstəliyi və dəri problemi olanlara həmin müalicəni tövsiyə etmirlər. Prosedurdan sonra arının iynə batırdığı nahiyəni mütləq yad cisimlərdən qorumaq lazımdır. Az kalorili məhsullarla qidalanmaq və bol maye qəbul etmək məsləhət görülür.

## İnternat məktəbindən oğurluq edən şəxs tutulub

Suraxanı Rayon Polis İdarəsinin 31-ci polis bölməsi və rayon mühafizə idarəsi əməkdaşlarının birgə keçirdikləri əməliyyat tədbiri nəticəsində fevralın 8-də Əmircan qəsəbəsindəki internat məktəbindən 20 ədəd pəncərə çərçivəsi oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini A.Qiladov saxlanılıb.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi axtarış zamanı ondan heroin aşkar edilərək götürülüb. Faktla bağlı rayon polis şöbəsi tərəfindən araşdırma aparılır.

## ELAN

**Əliyev Umar İlham oğluna ASAN 2 tərəfindən verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**